EVDƏ QAL, SAĞLAM QAL!

Regionların inkişafı dövlətin diqqət mərkəzindədi



Bax 2

Nüfuzlu "China Daily" qəzeti bir səhifəsini Azərbaycana həsr edib


HOLIDAY TRAVEL
Azerbaijan celebrates its past and present for world to see
Local vintages make touring the multicultural country a tasty experience

Bax 11



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 106 (6071) 26 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycan Ordusu: dövlətin dayağı, xalqın güvənc yeri, qürur mənbəyi!

## Prezident İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var"



Bax 7

### "Möhtərəm Prezidentimizin daimi diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrimiz inkişaf edir, döyüş qabiliyyətini daha da artırır"



*"Bildiyiniz kimi, Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan korpusunun yarandığı gün - 26 iyun Silahlı Qüvvələr Günü elan olunub. Xalqımız müstəqilliyimizin, suverenliyimizin qarantı olan Azərbaycan Ordusunun 102-cü ildönümünü qeyd etməyə hazırlaşır.*

Bax 5

### "Cərimələr kəskin artırılmasa, karantin rejiminin müddəti uzana bilər"

Bax 5



"26 iyun tarixi ölkəmiz üçün çox əlamətdar bir gündür. Bu tarix ölkəmizin və xalqımızın ən əhəmiyyətli bayramlarından biridir. Torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan üçün ordu quruculuğu çox mühüm əhəmiyyət kəsb edir.

### Operativ Qərargah: "Xüsusi karantin qaydaları gözlənilən nəticələri vermir"




"Son günlərdə koronavirus infeksiyasına yoluxanların sayında ciddi artım müşahidə olunur. Təhlil və müşahidələr göstərir ki, müəyyən olunmuş xüsusi karantin qaydaları, sanitar-epidemioloji tələblər gözlənilən nəticələri vermir". Nazirlər Kabineti yanında...

Bax 8

### "Barselona"da qalmaqal: Messi ilə Qrizmann savaşıblar!



*"Barselona" klubunun dünən Bilbao "Atletik"i ilə keçirilən matçından (1:0) əvvəl baş tutan məşq prosesində qalmaqal yaşanıb. İspaniya mediası xəbər verir ki, dəfələrlə aralarında mübahisə...*

Bax 16

### "Sağlam sabahımız məhz bu günkü məsuliyyətimizdən asılıdır"



*"Dövlət üzərinə düşən bütün vəzifələri həyata keçirib və indi əsas məsuliyyət bilavastə vətəndaşların üzərindədir". SİA xəbər verir ki, bu sözləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert...*

Bax 9

### Koronavirusa qarşı peyvənd nə zaman hazır olacaq?



Pandemiyanın sürəti getdikcə artır. Avropada vəziyyət yaxşılığa doğru getsə də, qlobal vəziyyət ürəkaçan deyil. Trend-in məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı...

Bax 9

"Torpaqlarımızı azad etmək iqtidarında olan güclü, qüdrətli ordumuz vardır"



Bax 10

"Gəlin, koronovirusa qarşı birgə mübarizə aparaq"



Bax 9

Sevinc Osmanqızını təlaşlandıran nədir?



Bax 13

# Regionların inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Samux və Mingəçevir şəhərlərinə səfər edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samux rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Samux şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.***



İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samux rayonunun ərazisində məcburi köçkün ailələri üçün inşa edilən yaşayış kompleksinin tikintisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Samux rayonunda 459 ailədən ibarət 1603 nəfər məskunlaşıb. Onların da böyük hissəsi Kəlbəcər rayonundan olan məcburi köçkünlərdi. İnşasına bu ildən başlanan və hazırda tikintisi davam edən kompleksə rayon ərazisində daha ağır şəraitdə yaşayan məcburi köçkün ailələri köçürüləcək. Kompleksə hər biri dördmərtəbəli olmaqla 9 yaşayış binası daxildir. Hər bir mənzilin tam təmirli vəziyyətdə məcburi köçkünlərə təhvil verilməsi nəzərdə tutulub. Hazırda ərazidə infrastrukturun qurulması ilə bağlı intensiv iş gedir. Buraya elektrik verilişinin təmin olunması, su təchizatının qurulması, qaz xətlərinin çəkilməsi daxildir.

Qeyd edək ki, dörd hektar sahəni əhatə edən yaşayış kompleksinə 144 şagird yerlik tam orta məktəb, 50 uşaq yerlik körpələr evi-uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və klub-icma mərkəzi daxildir. Ərazi tam abadlaşdırılacaq və yaşıllaşdırma işləri həyata keçiriləcək. Xatırladaq ki, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən siyasət nəticəsində indiyədək 300 mindən çox insanın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Dövlət büdcəsinin və Dövlət Neft Fondunun vəsaitləri hesabına indiyədək ölkədə 100-dən çox qəsəbə və hündürmərtəbəli binalardan ibarət yaşayış massivləri salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Samuxdakı "Aqro Dairy" MMC-nin aqroparkının fəaliyyəti ilə tanış olub. AZƏRTAC xəbər verir ki, sahəsi 5 min hektardan və ümumi dəyəri 65 milyon manatdan çox olan layihə çərçivəsində Qarasaqqal su kanalında nasos quraşdırılıb, 5,4 min kubmetrlik iki su anbarı, su hovuzları və saxlama anbarları tikilib. Aqroparkda istifadə olunması üçün 20 adda 91 ədəd texnika və aqreqat alınıb. 2019-cu ilin payızında 2 423 hektar sahədə buğda və 222 hektar sahədə arpa əkilib. Bu ilin yazında 74 hektar sahədə şəkər çuğunduru əkilib və taxıl biçini aparılan ərazilərdə qarğıdalı əkini nəzərdə tutulub. "Aqro Dairy" MMC-nin icraçı direktoru Vahid Hacıyev dövlətimizin başçısına aqroparkın fəaliyyəti barədə məlumat verdi.

Vahid Hacıyev: Samux rayonuna xoş gəlmisiniz. Sizi "Aqro Dairy" şirkətinin bütün kollektivi adından salamlayırıq. Sizin tapşırığınıza əsasən, ölkəmizdə taxılçılıq təsərrüfatının yaradılması istiqamətində görülən işlər çərçivəsində "Aqro Dairy" MMC Samuxda dövlət ehtiyat fondundan 5 min hektar, Tovuz rayonunda isə 12 min hektar ərazini uzunmüddətli icarəyə götürüb. Həmin ərazilərdə suvarılan sahələrimiz iki min hektardır.

Prezident İlham Əliyev: Su xətləri çəkilib, su anbarından gəlir?

Vahid Hacıyev: Bəli, su xətləri çəkilib. Buradan 13 kilometr məsafədə su anbarı var. Suvarılmayan ərazilərimiz də mövcuddur. Hazırda həmin ərazilərin suvarılması üçün işlər görülür.

Prezident İlham Əliyev: Burada əvvəllər heç bir əkin olmayıb?

Vahid Hacıyev: Xeyr, cənab Prezident, hətta torpaq çox yararsız idi, eroziyaya uğramışdı, çökəklikləri çox idi. Təbii ki, biz ildən-ilə bu torpaqları yaxşılaşdırdıq. Əlbəttə, təkrar əkin çox önəmli rol oynayır.

Prezident İlham Əliyev: Təkrar əkini ilk dəfədir aparırsınız?

Vahid Hacıyev: Xeyr, biz hər il təkrar əkin aparırıq, qarğıdalı əkirik. Çox sağ olun ki, Siz həmişə bizə dəstək göstərirsiniz.

Prezident İlham Əliyev: Bəli, vəsait də ayrılıb.

Vahid Hacıyev: Bu, bizim üçün həqiqətən çox vacibdir.

Prezident İlham Əliyev: Deməli, hər şey etmək mümkündür. Sadəcə olaraq, düzgün yanaşma lazımdır, vəsait qoyulmalıdır. Dövlət və özəl sektor burada çiyin-çiyinə işləməlidir. Necə ki, bu təsərrüfatda bunu görürük. Bu il məhsuldarlıq nə qədər olacaq?

Vahid Hacıyev: Biz arpa biçinini başa çatdırmışıq, Samux rayonunda 222 hektarda biçin aparmışıq, hektardan 47-48 sentner məhsul götürmüşük.

Prezident İlham Əliyev: Bu, yüksək göstəricidir.

Vahid Hacıyev: Tovuzda isə hektardan 62-67 sentner məhsul götürülüb, ancaq arpadan.

Prezident İlham Əliyev: Bəs, buğda?

Vahid Hacıyev: Hazırda buğda biçini gedir. Biz Samuxda artıq 1500 hektar buğda zəmisi biçmişik, hektardan məhsuldarlıq orta hesabla 58 sentnerdir. Bəzi torpaqlarımız var, məhsuldarlıq 65-67 sentner olub.

Prezident İlham Əliyev: Çox yaxşı. İri fermer təsərrüfatlarında daha çoxdur, amma ölkədə məhsuldarlıq hazırda buğdada 33 sentnerdir. Bu da yaxşı göstəricidir, keçən ilə nisbətən artıb, amma, əlbəttə, sizdə 58-60 sentnerə çatıbsa, bu, daha yaxşı göstəricidir.

***Ardı Səh. 3***

# Regionların inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Samux və Mingəçevir şəhərlərinə səfər edib*



**Əvvəli-Səh-2**

Vahid Hacıyev: Bu, yalnız Samuxdakı göstəricimizdir. Tovuzda göstəricilərimiz orta hesabla 78 sentnerdir. Cənab Prezident, bizim pivot suvarma sistemi ilə təchiz olunmuş 70 hektar ərazimiz var. Bu 70 hektarın bəzi sahələrində hektardan məhsuldarlıq 84-85 sentnerdir.

Prezident İlham Əliyev: Yəni, siz Avropanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çıxmısınız.

Vahid Hacıyev: Bəli, əgər Avstriyada məhsuldarlıq hektardan orta hesabla 67 sentnerdirsə, Almaniyada 75 sentnerdir. Biz çalışırıq buna çataq.

Prezident İlham Əliyev: Mən bilirəm ki, Avropada məhsuldarlıq nə qədərdir və bizdə də o qədər olmalıdır. Amma bunu etmək bir az çətindir. Çünki bizim iqlim fərqlidir. Torpaq da bəzi yerlərdə yararsızdır. Ona görə də bu torpaqlara siz həyat verirsiniz, canlandırırsınız.

Vahid Hacıyev: Cənab Prezident, biz bunu Sizin dəstəyiniz sayəsində əldə etmişik. Bu uğurlarda alınmış yeni texnikanın böyük rolu var.

Prezident İlham Əliyev: Bunları siz almısınız, investisiyaları siz özünüz qoymusunuz. Burada özəl sektor bütün investisiyaları qoyub, dövlət də bütün başqa təsərrüfatlarda olduğu kimi, öz infrastruktur dəstəyini göstərir, yol, elektrik enerjisi, su. Bunları dövlət edir, qalanını da özəl sektor. Ona görə bütün bu kombaynları siz özünüz almısınız. Dövlət bütün fermerlərə dəstək göstərir, subsidiyalar verir, ancaq hər bir təsərrüfatda hektardan 78 sentner məhsul götürürlərmi? Yox. Ona görə də siz gərək bu təcrübəni bölüşəsiniz. Ola bilərmi ki, burada, ya da ki, Tovuz rayonunda regional tədris mərkəzi yaradılsın, Aqrar Universitet ilə birlikdə. Gəlsinlər, baxsınlar, təcrübə toplasınlar, hər yerdə belə olsun. Məncə, bu gün Azərbaycanda ən yüksək məhsuldarlıq buradadır.

Vahid Hacıyev: Cənab Prezident, biz özümüz də öyrənirik, biz istəyirik ki, məhsuldarlığı daha da artıraq. Qarğıdalı səpinində də istəyirik ki, ilin axırına qədər məhsuldarlığımızı artıraq və öz nəticələrimizi göstərək. Biz öz məhsuldarlığımızla hələ ki, kifayətlənmirik.

Sonra Prezident İlham Əliyev burada çalışan xarici mütəxəssislərlə söhbət etdi. Xarici mütəxəssislər burada özlərini çox rahat hiss etdiklərini və yerli insanların onlara çox xoş münasibət göstərdiklərini məmnunluqla diqqətə çatdırdılar. Daha sonra Prezident İlham Əliyev taxıl biçininə və qarğıdalı səpininə start verdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevir şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Qeyd edək ki, Azərbaycanın ən böyük sənaye mərkəzlərindən olan Mingəçevirdə 2003-cü illə müqayisədə 2019-cu ildə məhsul buraxılışı 1,1 dəfə, kənd təsərrüfatı 1,1 dəfə, əsas kapitala yönəldilmiş vəsait 52,7 dəfə artıb. 2003-cü ildən 2020-ci ilin birinci rübünə qədər şəhərdə 19 min 755 yeni iş yeri yaradılıb və bu il ödənişli əsaslarla 905, pandemiya ilə əlaqədar isə 762 müvəqqəti iş yeri açılıb.

"Azərbaycan" İstilik Elektrik Stansiyasının 330 və 500 kilovoltluq açıq paylayıcı qurğuları, 8 enerji bloku, İdarəetmə Dispetçer Mərkəzi, stansiyanın əsas və köməkçi sahələri, bina və qurğuları əsaslı yenidənqurmadan sonra iyunun 25-də istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Qeyd edək ki, tikintisinə 1974-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanan "Azərbaycan" İstilik Elektrik Stansiyasının birinci enerji bloku 1981-ci il oktyabrın 20-də, sonuncu - 8-ci blok isə 1990-cı ildə istismara verilib. Öz dövrü üçün nəhəng infrastruktur layihəsi olan və respublikanın energetika sistemində xüsusi əhəmiyyəti ilə seçilən "Azərbaycan" İES elə o vaxtdan ölkənin elektrik enerjisinə tələbatının qarşılanmasında hər zaman birinciliyini qoruyub saxlayıb. Lakin 2018-ci il iyulun 3-də stansiyada baş vermiş qəza nəticəsində ölkənin yarıdan çoxu qaranlıqda qaldı. 330 kilovoltluq yarımstansiyasındakı cərəyan transformatorunda baş verən qəza nəticəsində təxminən min kiloqrama qədər yağ ətrafa axmışdı, yaxınlıqdan keçən elektrotexniki avadanlıqların, eləcə də kabellərin, əsasən də informasiya və avtomatika kabellərinin üzərinə dağılaraq güclü yanğına səbəb olmuşdu. Nəticədə bir-birinin ardınca baş verən qəzalar ölkənin enerji sisteminə ciddi ziyan vurmuşdu.

Araşdırmalar nəticəsində məlum olmuşdu ki, stansiyadakı generatorlarda təsirlənmə sistemləri, soyuducuları köhnəlmiş və istismara tamamilə yararsızdır. Qazanlarda küləkdən mühafizə lövhələri dağılıb, qazan avadanlıqları aşınıb və sıradan çıxıb. Regenerativ hava qızdırıcıları, qaz yolları, kompensatorlar və digər qurğular uzun müddət istismar olunduğundan yararsız vəziyyətə düşüb. Stansiyanın tüstü boruları və konstruksiyaları da aşınmaya məruz qalmışdı, Fasiləsiz Qida Mənbələri demək olar ki, işləmirdi. Maşın zalının konstruksiyası, dam örtüyü və döşəməsi dağılmışdı. Kimyəvi sutəmizləmə qurğusu olduqca köhnəlmişdi, azot və oksigen qurğuları, reagent və yağ təsərrüfatları istismar müddətini iki dəfədən çox başa vurmuşdu. Hidrogen qurğusu uzunmüddətli istismar edildiyindən təhlükə yaradırdı. Hətta Yuxarı Qarabağ kanalının stansiya ərazisindən keçən çıxış su kanalı hissəsinin yamacları dağılmışdı. 330 və 500 kilovoltluq yarımstansiyaların avadanlığı və mühafizə sistemləri öz ömrünü başa vurmuşdu. Bu isə sistem qəzasının olması ehtimalını ən yüksək səviyyəyə çatdırmışdı.

Prezident İlham Əliyev elektromobillə stansiyanın ərazisini gəzdi. Stansiyada yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev bildirdi ki, enerji bloklarının texniki su təchizatı Yuxarı Qarabağ kanalı vasitəsilə təmin edilir. Kanalın yamacları və dib hissəsi beton örtüklərlə bərpa olunub, dövran su xətlərinin altındakı dayaqlar əsaslı təmir edilib. Ərazidə yeni mazut çənləri, dövran və mazut nasosları quraşdırılıb. Stansiyanın qaz qəbulu məntəqələri də əsaslı təmir olunub.

İki il ərzində həyata keçirilən proqram çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyasında bütün parametrlər üzrə tikinti və bərpa işləri sürətlə aparılıb. Əsas diqqət həm də "Azərbaycan" İstilik Elektrik Stansiyasının hər biri ayrıca elektrik stansiyası statusuna malik 8 blokunun yenidən qurulmasına yönəlib. Blokların təbii təsirlərdən qorunması və ən əsası da itkilərin azaldılması üçün izolyasiya işləri görülüb. Yenidəqurma proqramı çərçivəsində yararsız metal konstruksiyalar yenilənib, yük məhdudiyyətinə təsir edən regenerativ hava qızdırıcılarının daxili elementləri dəyişdirilib, turbin qurğularında zədələnmiş işçi kürəklər, hidrogen və yağ istilik mübadilə aparatları da təzələnib. Kimya sexi müasir tipli əks-osmos sutəmizləyici texnologiyaya əsasən yenidən qurulub, reagent təsərrüfatı yenilənib, əlavə ehtiyat su çənləri yaradılıb.

Ardı Səh. 4

# Regionların inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Samux və Mingəçevir şəhərlərinə səfər edib*







Əvvəli-Səh-3

Diqqətə çatdırıldı ki, enerji bloklarında sıradan çıxmış elektrik mühərriki və nasos avadanlıqları, istismar və təmir üçün tələb olunan liftlər, ağırtonnajlı yükqaldırıcı kran və mexanizmlərin elementləri, yüksək gərginlikli cərəyan şinləri, güc və nəzarət kabelləri tam yenisi ilə əvəz olunub. Blok və xüsusi sərfiyyat transformatorları da təmir edilib.

Qeyd olundu ki, 2018-ci ildə sistem qəzasının mənbəyi olan 330 və 500 kilovoltluq yarımstansiyalar yenidən qurulub. İstismar müddəti bitmiş və partlayış təhlükəsi olan bütün hava açarları eleqaz tipli açarlarla, cərəyan və gərginlik transformatorları müasir tipli avadanlıqla əvəzlənib. Yarımstansiyaların hər biri üçün yeni idarəetmə binaları tikilib.

İndi "Azərbaycan" İES-in fəaliyyəti yeni tikilən inzibati binadan həyata keçirilir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş akt zalı yaradılıb. Bütün proseslər yeni quraşdırılan nəhəng monitordan idarə olunur.

Burada stansiyanın idarə olunması ilə bağlı videoçarx nümayiş etdirildi. Sonra dövlətimizin başçısı "Azərbaycan" İstilik Elektrik Stansiyasını işə saldı. Prezident İlham Əliyevə yeni tikiləcək "Qobu" Elektrik Stansiyasının layihəsi barədə məlumat verildi. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib. Prezident İlham Əliyev çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Dövlətimizin başçısına hava hücumundan müdafiə sisteminə yeni daxil edilmiş döyüş vasitələri barədə məlumat verildi.

Bildirildi ki, ümumi ərazisi 11 hektardan çox olan hərbi hissənin tikintisinə iki il bundan əvvəl başlanıb və artıq yüksək keyfiyyətlə başa çatdırılıb. Həm zabitlər, həm də əsgərlər üçün yataqxana binaları inşa olunub. Yeməkxana binasında əsgərlərin qidalanması üçün hər cür şərait var. Müasir avadanlıqla təchiz olunan tibb məntəqəsi və digər yardımçı otaqlar yaradılıb. Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə də tanış oldu. Qeyd edildi ki, döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə hərbi hissənin ərazisində təlim meydançaları qurulub, ərazi tam abadlaşdırılıb. Hərbi hissə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev hərbçilərlə görüşdü. Dövlətimizin başçısı görüşdə nitq söylədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Mingəçevirdə Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

Bildirilib ki, tikintisi bu ilin aprelində başa çatdırılan Dövlət Rəmzləri Muzeyinin sərgi zalında 9 bölmə yaradılıb. Burada Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən hazırlanmış ayrı-ayrı dövrlərə uyğun Azərbaycan xəritələri, Orta Əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, Orta Əsr Azərbaycan dövlətlərinin və xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar sərgilənir.

Muzeyin eksponatları arasında Azərbaycan Orta Əsr əsgərlərinin döyüş geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, Azərbaycan SSR-nin gerbləri və bayraqları, Silahlı Qüvvələrin mərasim geyim formaları və döyüş bayraqları, ümummilli lider Heydər Əliyevin və dövlətimizin başçısı İlham Əliyevin andiçmə mərasiminə aid fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamlar, poçt markaları, orden, medal, fəxri ad və döş nişanları nümayiş olunur.

Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə 200 yerlik yay səhnəsi də tikilib. Prezident İlham Əliyevə şəhərdəki "Dostluq" və "Nəsimi" parklarında aparılan yenidənqurma işləri barədə də məlumat verildi. Bildirildi ki, hər iki parkda istər şəhər sakinlərinin, istərsə də Mingəçevirin qonaqlarının istirahətlərinin maraqlı təşkili üçün hərtərəfli şərait yaradılıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətləri olmuş digər şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Samux rayonunun Çobanabdallı kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Mingəçevir şəhərində 12 nömrəli tam orta məktəb binasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Məhərrəm Əliyev: “Möhtərəm Prezidentimizin daimi diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrimiz inkişaf edir, döyüş qabiliyyətini daha da artırır”

***“Bildiyiniz kimi, Ümummilli lider Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan korpusunun yarandığı gün - 26 iyun Silahlı Qüvvələr Günü elan olunub. Xalqımız müstəqilliyimizin, suverenliyimizin qarantı olan Azərbaycan Ordusunun 102-cü ildönümünü qeyd etməyə hazırlaşır.***



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin də qeyd etdiyi kimi bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır”. Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyanın Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev deyib.

O bildirib ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin son 16 ildən artıq dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ordu quruculuğu və beynəlxalq hərbi-texniki əlaqələrin möhkəmləndirilməsi istiqamətində mühüm uğurlar əldə olunub: “Son illər ərzində Silahlı Qüvvələrdə bu istiqamətdə çox ciddi və əhəmiyyətli işlər görülüb, müdafiə qabiliyyətimizin artırılması, şəxsi heyətin peşəkarlığının və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, yeni hərbi şəhərciklərin istifadəyə verilməsi, hərbi qulluqçularımızın sosial müdafiəsinin gücləndirilməsi sahəsində böyük nailiyyətlər əldə olunub”

M.Əliyev söyləyib ki, bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, müdafiə sənayesinin inkişaf etdirilməsi, hərbi idarəetmənin təkmilləşdirilməsi, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitinin yüksəldilməsi kimi tapşırıqlar durur: “Azərbaycan ordusu ən müasir texnika və silahlarla təmin olunub. Paralel olaraq ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Beynəlxalq sərgilərdə ölkəmizin hərbi məhsullarına böyük marağın olması bunu deməyə əsas verir. Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Son illər ərzində bir neçə hərbi istehsal müəssisələri yaradılıb. Bu müəssisələrdə ordumuzun təchizatı üçün hərbi təyinatlı müxtəlif məhsullar istehsal edilir. Bundan əlavə ən müasir texnika və silahlar alınıb. Əldə olunmuş müasir zirehli texnikalar, hava hücumundan müdafiə sistemləri, təyyarələr, pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli və yaylım atəşli raket sistemləri bizim hərbi gücümüzü artırır”.

Prezidentin köməkçisi qeyd edib ki, hazırda Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır: “2016-cı ilin aprel döyüşləri zamanı düşmənə sarsıdıcı zərbələrin endirilməsi nəticəsində Ermənistan tərəfinin atəşkəs rejiminin bərpası üçün israrlı müraciətlər etmək məcburiyyətində qalması, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində əldə olunmuş Günnüt zəfəri Ordumuzun real qüdrətinin mühüm nümayişi olubdur. Bunlarla yanaşı, möhtəşəm hərbi paradlar və təlimlər də Azərbaycan Silahlı Qüvvələrinin potensialını, gücünü əyani surətdə göstərir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilmiş hərbi paradda Azərbaycan Ordusunun istənilən vəzifəni icra etməyə qadir olduğu, silahlı qüvvələrimizin qüdrəti bütün dünyaya aşkar şəkildə nümayiş etdirildi. Bir sözlə ifadə etsək Silahlı Qüvvələrimiz qarşısına qoyulan istənilən tapşırığı yüksək peşəkarlıqla yerinə yetirmək iqtidarındadır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daimi diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrimiz inkişaf edir, döyüş qabiliyyətini daha da artırır”.

## “Cərimələr kəskin artırılmasa, karantin rejiminin müddəti uzana bilər”

***“26 iyun tarixi ölkəmiz üçün çox əlamətdar bir gündür. Bu tarix ölkəmizin və xalqımızın ən əhəmiyyətli bayramlarından biridir. Torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan üçün ordu quruculuğu çox mühüm əhəmiyyət kəsb edir.***



Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik olan ordunun olması əsas şərtdir. Digər tərəfdən, güclü ordu elə güclü dövlət deməkdir”. Bunu SİA-ya YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, bu gün Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığı çox yüksəkdir: “Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur. Təkcə kəmiyyət etibarı ilə deyil, peşəkarlıq və təminat-təchizat baxımından da ordumuz öndədir. Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan ordusu bu gün ən müasir texnika, silahlarla təmin olunub. Belə ki, öz ordusunu müasirləşdirən dövlətimiz bunun üçün dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. Əlamətdar gün münasibətilə ölkə Prezidentini, I vitse-prezidentimizi, xalqımızı, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyan Silahlı Qüvvələrimizin hər bir üzvünü ürəkdən təbrik edirəm, bu müqəddəs işlərində uğurlar arzulayıram”.

Siyavuş Novruzov Azərbaycanın koronavirus (COVİD-19) pandemiyası ilə apardığı mübarizə məsələsinə də toxunaraq deyib ki, Azərbaycanın təcrübəsi dünya miqyasında müsbət nümunə kimi dəyərləndirilir, bir çox ölkələrə örnək göstərilir: “Xüsusilə də, dövlətimizin öz təşəbbüsləri və əməli addımları ilə hazırkı şəraitdə dövlətlər və xalqlar arasında təmasların sıxlaşmasına, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına mühüm töhfələr verməsi yüksək qiymətləndirilir. Bütün bu faktlar Azərbaycan dövlətinin insanların sağlamlığı, təhlükəsizliyi və rifahına xüsusi diqqət yetirdiyini, eyni zamanda, bu kontekstdə qlobal səylərini əsirgəmədiyini göstərir. Bu həm də onun ifadəsidir ki, humanizm dəyərləri və ənənələrinə əsaslanan Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticələri vətəndaşlar tərəfindən olduqca yüksək dəyərləndirilir. Dövlətimizin başçısına mütəmadi olaraq ünvanlanan çoxsaylı minnətdarlıq məktublarında əksini tapan fikirlər də bunun bariz təzahürüdür”.

Amma bütün bunlara baxmayaraq bu gün karantin qaydalarına vətəndaşlar tərəfindən əməl olunmamasına və ona görə də sərt qaydaların tətbiq olunmasının zərurətə çevrildiyini deyən Milli Məclisin Komitə sədri bildirib ki, cərimələrin artırılması ilə vətəndaşlar inzibati resurslarla qaydalara məcburi tabe edilməlidir. Əks halda ciddi itkilərin olması gözlənilir: “İnsanlara dəfələrlə bildirildi ki, əgər qaydalara məsuliyyətli şəkildə əməl etməsələr, karantin rejimi daha da sərtləşdiriləcək. Çünki virusun qarşısının alınmasında əsas rolu vətəndaş oynayır. Lakin görünən odur ki, onlar qoyulan tələblərə əməl etmək istəmir. Bu baxımdan da vətəndaşların qaydalara əməl etməməsi, görülən tədbirləri effektsiz edir. Düşünürəm ki, bunun qarşısını almaq üçün karantin rejimi daha da sərtləşdirilməlidir. Bəlkə o zaman insanlar vəziyyətin ciddiliyini başa düşər. Baxmayaraq ki, cərimələr tətbiq olunur, amma görünən odur ki, hazırkı cərimənin miqdarı insanlara vəziyyətin ciddiliyi dərk etdirmir. Bu baxımdan düşünürəm ki, cərimələri daha da artırmaq lazımdır, bəlkə insanlar vəziyyətin ciddiliyini bundan sonra dərk edib, qaydalara əməl edərlər. Vətəndaşlarımız qaydalara əməl etməməklə Azərbaycan Respublikasının Konstitusiyasının 5 maddəsini pozmuş sayılırlar. Bu məsələ hər bir şəxsin fərdi məsələsi deyil, bu ümumilikdə millətin məsələsidir. Burada başlıca olaraq millətin taleyindən, dövlətin, ailənin təhlükəsizliyindən söhbət gedir. Karantin rejiminin yumşalması ilə yanaşı, şəhərdə tibbi maska taxanların da sayı azalıb. Müşahidələr göstərir ki, əhalidə sanki arxayınlıq yaranıb, küçədə, marketlərdə, avtobuslarda və ya digər məkanlarda sosial təcrid qaydalarına demək olar əməl edilmir. Halbuki mütəxəssislər yoluxmanın ikinci dalğasının başlaya biləcəyinə dair xəbərdarlıq edirlər.

Qərb ölkələrində ictimai yerlərlə bahəm, nəqliyyatda maskadan istifadə olunması məcburidir və qaydanı pozanları böyük məbləğdə cərimələr gözləyir. Məsələn, Rusiyanın paytaxtı Moskvada ictimai nəqliyyatda maskasız olan şəxsi 4 min rubl məbləğində cərimə gözləyir. ABŞ-da ştatlardan fərqli olaraq, cərimələrin məbləği dəyişir. Məsələn, Merilend və ya Konnektikutda avtobusda maskasız olan 50 dollar məbləğində cərimələnirsə, Nyu-Yorkda avtobus və ya metroda maskasız şəxs 1000 dollarlıq cərimə ödəməlidir. Qətərdə ctimai yerlərdə maska taxmaq məcburidir. Qaydanı pozmaq həbs və ya çox iri məbləğdə cəriməyə səbəb olur. Üz maskası taxmamaq cəzası 200 min riyal (təxminən 55 min dollar) cərimə və ya üç il müddətinə azadlıqdan məhrumetmə ilə şərtləndirilə bilər. Amma Azərbaycanda vəziyyət tamam başqadır və insanlar da bu yumşalma tədbirlərindən sui-istifadə hallarına yol verir. Bu mənada hesab edirəm ki, əgər Azərbaycanda rəqəmlər artım tempi ilə davam etsə, karantin rejimi daha da ağırlaşmalı, cərimələr artırılmalıdır. Yoxsa bunun qarşısını almaq mümkün olmayacaq”.

***Ceyhun Rasimoğlu***

## “Cərimələr artırılmasa ciddi itgilərin olması gözlənilir”



“Bu gün hər bir Azərbaycan vətəndaşı dərk edir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası məsələsində arxalana biləcəyimiz yeganə güc məhz Azərbaycan Ordusudur. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Ziyafət Əsgərov deyib.

Millət vəkilinin sözlərinə görə, ölkəmizdə son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması ölkə başçısının fəaliyyətinin nəticəsidir: “Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrdə islahatların davam etdirilməsini, ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsini, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasını prioritet vəzifələr kimi müəyyənləşdirməsi ordunun inkişafının əsasında dayanır. Ordu məsələlərinə yüksək diqqət Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir. Azərbaycan Ordusu ən şərəfli missiyasının - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin öhdəsindən gəlməyə hər an hazırdır”.

Ziyafət Əsgərov bu gün bütün dünyanın kabusuna çevrilmiş koronavirus (COVİD-19) pandemiyasından və Azərbaycanın bu istiqamətdə gördüyü işlərdən də danışıb. Onun sözlərinə görə, karantin qaydalarına vətəndaşlar tərəfindən əməl olunmur və bu da nəticədə sərt qaydaların tətbiq olunmasını zərurətə çevirir: “Vətəndaşlar tərəfindən məsuliyyətsiz şəxslərə qarşı ictimai qınaq artırılmalıdır. Qapalı yerlərdə maska taxmayana qarşı cərimə tətbiq edilməlidir. Eyni zamanda, qaydalara əməl etməyənlər vətəndaşlarımız tərəfindən tənbeh olunmalıdır. Çünki bu virusa yoluxan bir nəfər yüzlərlə, hətta minlərlə vətəndaşı yoluxdura bilər. Polis insanları virusdan qorumaq üçün gecə-gündüz fasiləsiz çalışır. Unutmaq olmaz ki, bir xəstənin müalicəsi üçün çox sayda həkim və tibb işçisi çalışır. Onlar gecə-gündüz kombinezonda, eynəkdə, maskada ağır durumda öz müqəddəs vəzifələrini yerinə yetirirlər. Müşahidələr göstərir ki, son dövrlər gənclərimiz arasında məsuliyyətsiz davranışlar artmaqdadır. Onlar elə düşünürlər ki, xəstəlik onlar üçün təhlükəli deyil. Ancaq onlar ciddi şəkildə yanılırlar. Bütün bu davranışlar aradan qaldırılmalıdır. Bütün qapalı yerlərdə - metroda, avtobuslarda, eləcə də alış-veriş mərkəzlərində, mağazalarda tibbi maskadan istifadə edilməməsinə görə cərimə tətbiq edilməlidir və bu cərimələr ikiqat artırılmalıdır. Maska taxmamaqla insanlar yalnız özlərinin deyil, digərlərinin də həyatlarını təhlükəyə atırlar. Maskanın taxılması virusun yayılmasının qarşısının alınmasına müəyyən qədər təsir edir. Hesab edirəm ki, vətəndaşlar inzibati resurslarla qaydalara məcburi tabe edilməlidir. Cərimələr artırılmasa əks halda ciddi itgilərin olması gözlənilir”.



# Qüdrətli Azərbaycan Ordusu xalqımızın qürur mənbəyidir

## *YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun yap.org.az-a müsahibəsi*

***Müasir müstəqil Azərbaycan inkişaf yolunda inamla və uğurla irəliləyir, qazanılan nailiyyətlər dövlətimizin qüdrətini daha da artırır. Faktlar və reallıqların əks etdirdiyi kimi, yüksək inkişaf göstəriciləri bütün sahələri əhatə edir. Bu baxımdan, ölkədə ordu quruculuğu sahəsində görülən məqsədyönlü işlərin və aparılan islahatların nəticəsində əldə olunmuş uğurları da xüsusi vurğulamaq lazımdır.***

### Azərbaycanda nizami və güclü ordu quruculuğunun əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub

Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alması təsadüfi xarakter daşımır. Bunu təmin edən amil xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu nizami və güclü ordu quruculuğu siyasətinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla, ardıcıllıqla davam etdirilməsidir.

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində müəyyən silahlı birləşmələr yaradılmışdı. Amma onlar ayrı-ayrı şəxslərə, siyasi partiyalara və s. tabe idi. Torpaqlarımızın işğalına bir səbəb də ordunun belə vəziyyətdə olması idi. Çünki bir batalyon hücuma keçəndə digəri geri çəkilirdi. Bütün bunlara görə isə faciələrlə rastlaşırdıq. Vahid komandanlığın olmaması ordunu çətin duruma salmışdı. Həmin illərdə silahlı qüvvələrimizə rəhbərlik edənlərin əksəriyyəti xarici qüvvələrin əks-kəşfiyyatı ilə bağlı idi. Müdafiə naziri və onun bəzi müavinləri üçün xaricdən verilən göstərişlər daha əhəmiyyətli idi. Yəni onlar respublika rəhbərliyinin mövqeyinə əhəmiyyət vermirdilər, bu da ordu ilə siyasi hakimiyyət arasında ciddi qarşıdurmalara səbəb olmuşdu. Bütün bunlar isə, nəticə etibarilə, ölkəmizə ciddi problemlər yaradırdı. Xüsusilə də, 1992-1993-cü illərdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün xəyanətkar, eləcə də həmin dövrdə müdafiə naziri olan riyaziyyat müəlliminin yarıtmaz və antimilli fəaliyyəti nəticəsində Azərbaycanın torpaqlarının, o cümlədən Kəlbəcərin, Şuşanın, Laçının işğal altına düşməsi danılmaz həqiqətdir.

Lakin 1993-cü ildə Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğu sahəsinə də böyük diqqət ayırdı. Ordu vahid komandanlıq ətrafında birləşdirildi və nizami ordu yaradıldı. Ümumiyyətlə, müstəqil ölkəmizin güclü - qüdrətli ordusunun memarı olan Ümummilli Lider Heydər Əliyev hələ Sovet dönəmində ordu quruculuğu istiqamətində bir sıra mühüm addımlar atmışdı. Cəmşid Naxçıvanski adına hərbi məktəbin Sovet illərində Bakıda açılması Heydər Əliyevin xidmətlərinin nəticəsi idi. Hansı ki, həmin məktəb bu gün də müstəqil Azərbaycanın Ordusu üçün zabitlər hazırlayır. Yəni ordu quruculuğu prosesinin, müasir dövrün tələblərinə cavab verə biləcək Silahlı Qüvvələrin formalaşmasının bünövrəsi məhz Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulub.

### Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində sistemli ordu quruculuğu prosesi yeni keyfiyyət mərhələsinə yüksəlib. Görülən bütün bu işlər nəticəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığına nail olub və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Bunlarla yanaşı, ordumuz bu gün ən müasir texnika və silahlarla təmin olunub. Paralel olaraq ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir ki, bu da beynəlxalq müstəvidə hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı xeyli artırır. Beynəlxalq sərgilərdə ölkəmizin hərbi məhsullarına böyük marağın olması bunu deməyə əsas verir.

Şübhəsiz ki, Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Son illər ərzində 20-dən çox hərbi zavod yaradılıb. Bu zavodlarda çoxsaylı hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, Azərbaycan artıq hərbi məhsullarını ixrac etməyə başlayıb. Dövlətimizin başçısının qeyd etdiyi kimi, son illər ərzində ən müasir texnika və silahlar alınıbdır: "Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir".

Azərbaycanda hərbi məktəblərın uğurlu fəaliyyəti də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bu, sözügedən sahədə tədris prosesinin sistemli şəkildə və ardıcıllıqla davam etdirilməsinə, nəticə etibarilə, kadr potensialının inkişafına, orduda peşəkarlığın daimi olaraq artırılmasına imkan verir. Bundan başqa, Azərbaycan zabitləri NATO standartlarına uyğun olaraq hərbi təlimlərdə iştirak edirlər, kurslar keçirlər. Hərbçilərimiz istər ABŞ-da, istər Türkiyədə, istərsə də, Avropanın ayrı-ayrı ölkələrində təcrübələrini artırırlar, gənclərimiz ayrı-ayrı ölkələrə hərbi təhsil almağa göndərilirlər.

Bütövlükdə, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır.

### Azərbaycan Silahlı Qüvvələri yüksək vətənpərvərlik ruhuna malikdir

Dünya təcrübəsinə və hərb tarixinə nəzər saldıqda görünür ki, silahlı qüvvələrin gücünü, döyüş qabiliyyətini müəyyən edən mühüm faktorlardan biri vətənpərvərlik ruhudur. Xüsusilə də, bu, müharibə şəraitində yaşayan ölkə və xalqlar üçün mühüm əhəmiyyətə malikdir. Ölkəmizin təcrübəsi bu baxımdan müsbət nümunə kimi çıxış edir. Sevindirici haldır ki, Azərbaycan Silahlı Qüvvələrində sağlam mənəvi-psixoloji durum, ruh yüksəkliyi, özünəinam, güclü vətənpərvərlik hissləri hökm sürür. Bu səbəbdən cəmiyyətimiz Azərbaycan Ordusuna vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı xeyli möhkəmlənmiş, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir bir qüvvə kimi böyük inam bəsləyir.

### Aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycanın işğal faktı ilə barışmayacağını bir daha nümayiş etdirdi

Ən mühüm məqamlardan biri budur ki, Azərbaycan Ordusu döyüş meydanında öz gücünü göstərməklə bu inamın əbəs yerə olmadığını sübuta yetirib. Başqa sözlə, Aprel döyüşləri və Naxçıvan əməliyyatı Azərbaycanın işğal faktı ilə barışmayacağını bir daha nümayiş etdirib.

Ümumiyyətlə, bu baxımdan bir neçə məsələyə xüsusi nəzər salmaq lazımdır. İlk növbədə qeyd edək ki, Aprel döyüşləri müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Bu döyüşlər göstərdi ki, Azərbaycan işğal faktı, mövcud status-kvo ilə barışmaq, Ermənistanın təxribatlarına dözmək niyyətində deyil, düşmənə layiqli cavab vermək əzmində və gücündədir. 2016-cı il aprelin ayında Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı. Şanlı Aprel qələbəsi, həmçinin qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Eyni zamanda, bəhs olunan döyüşlər erməni təbliğat maşınının Ermənistan ordusunun gücü haqqında formalaşdırdığı mifi dağıtdı, bu kimi iddiaların heç bir əsası olmadığını göstərdi. Bir daha bəlli olduğ ki, Azərbaycan dövləti, onun ordusu qüdrətlidir və istənilən təxribatçı hərəkətlərin qarşısını almaq iqtidarındadır. Ermənistan silahlı qüvvələri tərəfindən dəfələrlə törədilmiş təxribatların qarşısının məharətlə alınması bunu əminliklə söyləməyə əsas yaradır.

Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə həm Ermənistana, həm ermənipərəst dairələrə, həm də bütövlükdə beynəlxalq ictimaiyyətə belə bir mesaj verdi ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradıla bilməz! Ermənistan işğalçı siyasətə son qoymalı, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, fundamental hüquqları pozulmuş, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan artıq soydaşımız öz doğma yurdlarına qayıtmalıdırlar. Bir sözlə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır".

Bunlarla yanaşı, möhtəşəm hərbi paradlar və təlimlər də Azərbaycan Silahlı Qüvvələrinin potensialını, gücünü əyani surətdə göstərir. Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilmiş hərbi paradda, o cümlədən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Azərbaycan Ordusunun istənilən vəzifəni icra etməyə qadir olduğu, silahlı qüvvələrimizin qüdrəti bütün dünyaya aşkar şəkildə nümayiş etdirildi.

Digər tərəfdən, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin, hazırlığının, təcrübəsinin artırılmasında hərbi təlimlərin keçirilməsi mühüm əhəmiyyətə malikdir. Xüsusilə də, Türkiyə, Gürcüstan kimi ölkələrin silahlı qüvvələri ilə birgə keçirilən təlimlər ayrıca qeyd edilməlidir. Birgə təlimlərin keçirilməsi, qərargahların fəaliyyətinin uzlaşdırılması, komandirlərin birgə qarşılıqlı əlaqədə müasir döyüşün təşkilini öyrənmələri böyük önəm kəsb edir. Bütövlükdə isə, paradlar kimi, təlimlər də ölkəmizdə güclü ordu quruculuğu prosesinin uğurla həyata keçirilməsini əks etdirən mühüm nümunələrdəndir.

Bir sözlə, qüdrətli Azərbaycan Ordusu xalqımızın qürur mənbəyidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətlə vurğuladığı kimi: "Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik".

# Azərbaycan Ordusu: dövlətin dayağı, xalqın güvənc yeri, qürur mənbəyi!

*Prezident İlham Əliyev: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var"*

Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu vardır.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi. Bu

danlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir və döyüş qabiliyyətini artırır.

### Ordu quruculuğu - son 17 illik uğurlu nəticələr

Məhz Prezident İlham Əliyevin son 16 illik uğurlu siyasətinin nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsində müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait, artıq bir neçə ildir ki, ardıcıl olaraq, Ermənistanın ümumi dövlət büdcəsindən çoxdur. Bununla yanaşı, Müdafiə Sənayesi Nazirliyində 400 addan çox müdafiə təyinatlı məmulatın istehsal olunması ölkəmizin hərbi qüdrəti-






baxımdan, ölkəmizdə dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordunun formalaşdırılması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ həm də Azərbaycanın nizami ordusunun formalaşdırılması kimi əlamətdar olmuşdur. Ötən əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşımışdır. Bundan başqa, Ulu Öndərin rəhbərliyi ilə gənclərimiz müxtəlif respublikalarda hərbi təhsil almış, ixtisaslı hərbçi kadrlar kimi formalaşaraq, vətənə qayıtmışlar. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun peşəkar komandan heyətini təşkil etmişdir.

Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində milli ordumuz davamlı olaraq inkişaf edir.

### "Əminəm ki, Azərbaycan gücləndikcə, ordumuz da güclənəcək"

"Bu gün Azərbaycan Ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə, nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Əminəm ki, Azərbaycan gücləndikcə, ordumuz da güclənəcək. Artıq ordumuz istənilən vəzifəni həll etməyə hazırdır" deyən ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanda müasir hərbi sənaye kompleksi yaradılmış, Silahlı Qüvvələrin maddi-texniki bazası müasir texnika və silahlarla zənginləşdirilmiş, bu sahədə kadr hazırlığı təkmilləşdirilmişdir. Bir mərkəzdən idarə edilən, vahid koman-

nin artmasının bariz nümunələrindəndir.

Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hazırda güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və şəxsi heyətin döyüş ruhu yüksəkdir. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Bu gün orduda xidmət etməyə yaşı çatan hər bir Azərbaycan vətəndaşı, könüllü olaraq, torpaqlarımızın müdafiəsi uğrunda döyüşmək əzmində olduğunu nümayiş etdirir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Prezident İlham Əliyev hər çıxışında Azərbaycan Ordusunun gücünü və torpaqlarımızı azad etmək əzmində olduğunu xüsusi olaraq vurğulayır. Elə 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində də dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev ordu ilə bağlı mühüm mesajlar verdi: "Biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda, beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Deməli olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi və beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq".

### Azərbaycan Ordusu - dünyanın 50 ən güclü ordusu sırasında

Son 17 ildə ölkədə aparılan ardıcıl islahatlar və düşünülmüş daxili və xarici siyasət nəticəsində, Azərbaycan Cənubi Qafqaz regionunun ən nüfuzlu dövlətinə çevrilib. Müstəqilliyimizin, dövlətçiliyimizin qarantı olan və yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvən yeridir. Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu hazırda dünyanın 50 ən güclü ordusu sırasındadır.

Hərbi qüdrətini, ardıcıl olaraq, artıran Azərbaycan Ordusu ən müasir silahlarla, hərbi texnika və digər müdafiə təyinatlı qurğularla tam təchiz edilib. Ordumuzun hərbi-texniki və döyüş hazırlığının yüksək səviyyədə olduğunu son dövrlərdə qazanılan hərbi uğurlar da aydın surətdə göstərir. Ölkə rəhbərliyinin bu istiqamətdə həyata keçirdiyi uğurlu siyasətin və düşünülmüş strateji xəttin nəticəsidir ki, bu gün Azərbaycan ən müasir silahları almaqla yanaşı, onların bir çoxunu özü istehsal etmək qabiliyyətindədir. Həmin arsenalın bir hissəsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən hərbi parad zamanı nümayiş etdirildi.

### Möhtəşəm güc: Azərbaycan Ordusunun daimi inkişafı

Azərbaycana qarşı düşmənin informasiya savaşını daha da genişləndirdiyi haqqında məlumatlar yayılır. Onu müəyyən üsullarla həyata keçirməyə çalışırlar. Onların sırasında Azərbaycan Ordusu haqqında təxribatçı informasiyalarla yanaşı, müxtəlif yüksək vəzifəli şəxslər barədə həqiqətə uyğun olmayan məlumatların uydurulması da vardır. Hətta xüsusi təşkil edilmiş üsulla ermənilər azərbaycanlı adı ilə sosial şəbəkələrdə qeydiyyatdan keçir və informasiya savaşında iştirak edirlər.

Təbii ki, bütün bunlar gözlənilməz deyil və Azərbaycan tərəfinin iradəsini qətiyyən sındıra bilməz. Əksinə, Azərbaycan daha təkmil üsullarla və daha təmkinli qaydada bizə dost olmayan dairələrin cavabını verir. Belə ki, son aylar ardıcıl olaraq keçirilən mötəbər tədbirlərdə bir daha bunun şahidi oluruq. Belə ki, danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Azərbaycan Prezidenti, Ali Baş Komandan tutarlı cavb verməsi bir daha dövlət başçımızın ordu siyasətinin düzgün və uğurlu həyata keçirilməsinin məntiqi nəticəsidir: "Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır!".

Göründüyü kimi, Azərbaycan Prezidenti yüzillik erməni yalanını beynəlxalq miqyasda bir daha ifşa etdi, Ermənistan baş nazirini isə yenə də "öz dilindən yandırıb" gülüş hədəfinə çevirdi. Bu, ölkə başçısının qətiyyətli və prinsipial mövqeyinin nəticəsidir.

Bu gün ordumuz ən yüksək səviyyədədir

Bu fikri konkret faktlar təsdiq edir. Beynəlxalq ekspertlər dəfələrlə fikir bildiriblər ki, Azərbaycan Ordusu bütün göstəricilərinə görə Cənubi Qafqazda ən güclü ordudur. Ayrıca, Ermənistan silahlı qüvvələrindən dəfələrlə qüdrətlidir. Məsələn, 2016-cı ilin məlum Aprel döyüşlərində Azərbaycan Ordusunun kiçik bir hissəsi Ermənistan ordusunu darmadağın etdi. Erməni əsgərlər qaçmaqla xilas olmağa çalışırdılar. Ermənistan ordusunu tam məğlubiyyətdən Rusiya xilas etdi. Bunu indi rəsmi səviyyədə açıq deyirlər. Ermənilər yalvarıblar ki, Azərbaycanı dayandırsınlar. Lakin hətta qısamüddətli döyüş belə göstərdi ki, Ermənistan ordusu Azərbaycan Ordusundan dəfələrlə zəifdir. Həm təşkilati, həm silahlanma, həm döyüş taktikası, strateji planlama kimi istiqamətlərdə erməni ordusu çox geridə qalır. İndi Ermənistan rəsmiləri ordudakı xəyanətkarları, caniləri, silah alverçilərini, bacarıqsız zabitləri axtarmaqla məşğuldursa, Azərbaycan rəhbərliyi ordunu daha da gücləndirir. Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bununla bağlı Prezident İlham Əliyev bəyan edib: "Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir".

Bəli, nə qədər ki, əzəli-əbədi torpaqlarımız düşmən işğalı altındadır, Azərbaycan əsgəri silahını yerə qoymayacaq! Bəli, bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun İlham Əliyev kimi Lider Prezidenti, Ali Baş Komandanı var. Həmçinin, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri vardır və işğalçı Ermənistan qeyri-konstruktiv mövqeyindən əl çəkərək, Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməlidir, əks-təqdirdə, təcavüzkar Ermənistan qarşısında qüdrətli Azərbaycan Ordusunun gücünü bir daha görəcək! Və hər şeyin bir sonu olduğu kimi, bu ədalətsiz münasibətin də bir sonu olacaq. Və o zaman Azərbaycan Ordusunun qarşısında kimsənin dayanması mümkün olmayacaq. Ölkə rəhbərliyinin də əminliklə dediyi kimi, O GÜN MÜTLƏQ GƏLƏCƏK!

**RƏFİQƏ KAMALQIZI**

# Operativ Qərargah: “Xüsusi karantin qaydaları gözlənilən nəticələri vermir”



“Son günlərdə koronavirus infeksiyasına yoluxanların sayında ciddi artım müşahidə olunur. Təhlil və müşahidələr göstərir ki, müəyyən olunmuş xüsusi karantin qaydaları, sanitar-epidemioloji tələblər gözlənilən nəticələri vermir”. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, bir sıra hallarda sahibkarlıq subyektləri, Operativ Qərargahın mümkün qədər işə az əməkdaş çıxarmağa dair tövsiyyələrinə baxmayaraq, bütün işçi heyətini tam tərkibdə, yaxud da böyük əksəriyyətini “İcazə.e-gov.az” portalından qeydiyyatdan keçirərək işə çıxmaları üçün birdəfəlik icazələr alır.

Eyni zamanda fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslər də, bəzi hallarda mühafizə və texniki təhlükəsizliyin təmin edilməsi üçün zəruri olandan xeyli artıq sayda əməkdaşları qeydiyyatdan keçirirlər.

Belə yanaşmaların müəyyən olunmuş məhdudiyyət tədbirlərinin səmərəsini azaldır, əhalinin sağlamlığı üçün ciddi təhlükə yaradır. Bununla əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah xüsusi karantin rejimində işə çıxmasına icazə verilənlərin sayı ilə bağlı müəyyən olunmuş bir sıra məhdudiyyətlərin sərtləşdirilməsi məsələsinə yenidən baxılmasını zəruri hesab edir və bu istiqamətdə vacib olan bütün qərarları qəbul edəcək.

***Nigar Məmmədova***

# “Pandemiya dövründə həyata keçirilən humanist siyasətin bir daha şahidi olduq”



***“İyun ayının əvvəlində həftə sonları tətbiq edilən sərt karantin rejimi bizə o qədər də nəticə vermədi, buna görə də iyun ayının 21-dən iyul ayının 5-nə qədər çox ciddi karantin rejimi tətbiq olundu və Prezident İlham Əliyevin də qeyd etdiyi kimi vətəndaşın sağlamlığı və sosial müdafiəsinin təminatı nəzərə alınaraq yenidən qeyri-formal işçilərə və sosial yardıma ehtiyacı olan insanlara 190 manat müavinət bərpa olundu”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin üzvü olan deputatı Məlahət İbrahimqızı deyib.***

Onun sözlərinə görə, Azərbaycanda 4 aya yaxın bir müddətdir ki, koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri aparılır, hətta, ölkədə infeksiya qeydə alınmamışdan əvvəl Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə bütün önləmlər alınmışdır və virus qeydə alındıqdan sonra isə daha ciddi, genişmiqyaslı tədbirlər görülməyə başlandı: “Görülən bütün işlərdə bir tezis özünü biruzə verirdi və bu, Prezident İlham Əliyevin bütün çıxışlarında da səslənirdi ki, bizim üçün əsas vətəndaşın sağlamlığıdır. Ən güclü və inkişaf etmiş ölkələrdə belə problemlər meydanə gəldi. Buna baxmayaraq, Azərbaycanda güclü tədbirlər görüldü. Baxmayaraq ki, bütün dünya iqtisadiyyatına pandemiya çox ciddi ziyanlar vurdu və Azərbaycan iqtisadiyyatından da yan keçmədi. Prezident İlham Əliyev isə bütün yükü və ağırlığı dövlətin üstünə götürdü. Vətəndaşın sağlamlığı, sosial rifahı üçün bütün tədbirlər görüldü. İki aylıq tətbiq edilən sərt karantin dövründə insanlar əməkhaqqıları təmin edilməklə məzuniyyətə çıxarıldı. Günəmuzd çalışan vətəndaşlarımıza da həmçinin 190 manat müavinət ödənildi. Prezident İlham Əliyev bildirdi ki, əgər yenidən sərt karantin rejimi tətbiq edilsə əhaliyə müavinətlər veriləcək və heç bu vəziyyətdə sıxıntı çəkməyəcək”.

Millət vəkili vurğulayıb ki, bütün dünya ölkələrində sərt karantin rejimindən yumşalmalara doğru getdikdə pandemiya ilə əlaqədar yoluxma sayının artdığı və ölüm hallarının artığını müşahidə olunur, lakin insanları da il boyu karantin altında saxlamaq mümkün deyil: “Çünki, burada sosial-psixoloji amillər də özünü göstərir. Bir tərəfdən ölkəmizdə pandemiya ilə ciddi mübarizə aparılır, digər tərəfdən də insanların əvvəlki həyat tərzinə uyğunlaşması ilə bağlı karantin rejimində müəyyən yumşalmalar tətbiq edilirdi. Koronavirusla mübarizədə təkcə dövlətin və hökumətin səyləri kifayət etmir, bu bir müharibədir və bu müharibədə hər kəs düşməni öz ətrafında hiss etməlidir. Vətəndaşlar da bu mübarizəyə çox ciddi şəkildə qoşulmalı idi. Hökumətin məsuliyyəti nə qədərdirsə, vətəndaşın da məsuliyyəti o qədərdir”.

Məlahət İbrahimqızı qeyd edib ki, iyun ayının əvvəlində həftə sonları sərt karantin rejimi tətbiq edildi, lakin bu bizə o qədər də nəticə vermədi, buna görə də iyun ayının 21-dən iyul ayının 5-nə qədər çox ciddi karantin rejimi tətbiq olundu və Prezident İlham Əliyevin də qeyd etdiyi kimi vətəndaşın sağlamlığı və sosial müdafiəsinin təminatı nəzərə alınaraq yenidən qeyri-formal işçilərə və sosial yardıma ehtiyacı olan insanlara 190 manat müavinət bərpa olundu: “Artıq 3-cü ay vətəndaşlar bu müavinəti alacaqlar. Bu bir daha göstərir ki, ölkə rəhbərinin yürütdüyü siyasət həmişə humanist və sosial yönümlü olub. Həmçinin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həlá Heydər Əliyev Fondunun xətti ilə həyata keçirdiyi bütün layihələr dünyada sosial və humanist dəyərlərin simvoluna çevrilmişdir. Bu mənadə ölkəmizdə pandemiya dövründə də həyata keçirilən humanist siyasətin bir daha şahidi olduq”.

# “Koronavirusla mübarizədə ictimaiyyətin dövlətə dəstək verməsi vətəndaşlıq borcumuzdur”

***Bu gün yeni növ koronavirus infeksiyasına qarşı mübarizə çərçivəsində Azərbaycanda həyata keçirilən operativ və mübarizə xarakterli tədbirlər dövlətin öz vətəndaşlarına verdiyi dəyərin parlaq ifadəsidir. Dövlət tərəfindən görülən bütün tədbirlər şübhəsiz ki, xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Məlum olduğu kimi, iyunun 24-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak ediblər.***



Açılış zamanı bir qrup tibb işçisi ilə görüşündə dövlətimizin başçısının çıxışı Azərbaycanda koronavirus pandemiyası ilə mübarizədə dövlətin gördüyü işlər və başlıca hədəf olaraq Azərbaycan vətəndaşının sağlamlığının əsas götürülməsi və bu istiqamətdə dövlətin bütün gücünün, eyni zamanda, bütün potensialının səfərbər olunması ilə bağlı məqamlar idi.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Millət vəkilinin sözlərinə görə, Prezident bir daha bu məsələyə toxundu ki, Azərbaycanda görülən işlər, dövlətin bu istiqamətdə qarşıya qoyduğu məqsədlər yalnız ona ünvanlanıb ki, Azərbaycan vətəndaşları pandemiyadan zərər çəkməsin və minimum insan itkisi ilə çıxa bilsin. S.Fətəliyeva bildirib ki, koronavirus infeksiyası ilə mübarizə tədbirləri Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsi nəzarətindədir. Pandemiyanın Azərbaycanda təsirləri hiss olunan dövrdən başlayaraq bu istiqamətdə görülən işlərə dövlətin münasibəti dəyişməzdir. Münasibət isə ondan ibarətdir ki, bütün iqtisadi və digər itkilərə baxmayaraq əsas ölkə vətəndaşlarımızın sağlamlığı qorunsun və təmin olunsun. Əlbəttə ki, bu istiqamətdə də ardıcıl və sistemli şəkildə işlər görülür. Hər bir vətəndaş cənab Prezidentin tövsiyələrinə əməl etməlidir. Eyni zamanda, dövlət başçısı çıxışında koronavirusla bağlı ölkədə yaranmış vəziyyətə aydınlıq gətirdi və həkimlərimizin fədakarlığını xüsusi vurğuladı. Prezident qeyd etdi ki, sərtləşdirilmiş tədbirlərin əsas məqsədi yoluxmanın sürətini azaltmaqdır. Çünki biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Dövlətimizin başçısı söylədi ki, yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Belə olan situasiyada isə hər bir insanımızın, hər bir vətəndaşımızın üzərinə tam bir məsuliyyət düşür və onun reallaşdırılması üçün həmrəylik faktoru ən ümdə amil olaraq qiymətləndirilməlidir. Əlbəttə ki, bizlər bütün tələblərə və şərtlərə əməl etməliyik, tibbi maskalardan istifadə etməli, sosial məsafəni gözləməliyik. Ən əsası, hər bir məsələdə bizlərə nümunə və örnək olan dövlət başçımızdan və birinci xanımdan nümunə götürməliyik. Koronavirusla mübarizədə bizim başlıca şüarımız “Biz birlikdə güclüyük” ifadəsidir. Şübhəsiz ki, biz birlikdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, milli həmrəyliyimizlə koronavirus pandemiyasına qalib gəlmək əzmindəyik. Bunun üçün isə, ilk növbədə, məsuliyyətli olmalıyıq. Bu istiqamətdə ictimaiyyət dövlətə güclü dəstək verməlidir. Bu, bizim vətəndaşlıq borcumuzdur.

# “Dövlətimiz tərəfindən görülən tədbirlər nəticəsiz qalmayacaq”

***“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışı zamanı söylədiyi nitq əlbəttə ki, Azərbaycanda koronovirus pandemiyası ilə mübarizədə dövlətin gördüyü işlər və başlıca hədəf olaraq Azərbaycan vətəndaşının sağlamlığının əsas götürülməsi və bu istiqamətdə dövlətin bütün gücünün, eyni zamanda bütün potensialının səfərbər olunması ilə bağlı məqamlar idi”.***



Bunu SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib. “Fikirləşirəm ki, çox doğru olaraq ölkə başçımız bir daha bu məsələyə toxundu ki, Azərbaycanda görülən işlər, dövlətin bu istiqamətdə qarşıya qoyduğu məqsədlər yalnız ona ünvanlanıb ki, Azərbaycan vətəndaşları pandemiyadan zərər çəkməsin və minimum insan itkisi ilə çıxa bilsin. Əlbəttə ki, bütün qabaqlayıcı tədbirlərin də əsasında o dayanır ki, bizim vətəndaşlar itki görməsinlər. Dövlət başçımız dəfələrlə bu fikirləri bəyan edib. Görünən odur ki, artıq pandemiyanın Azərbaycanda təsirləri hiss olunan dövrdən başlayaraq bu istiqamətdə görülən işlərə dövlətin münasibəti dəyişməzdir. Münasibət isə ondan ibarətdir ki, bütün iqtisadi və digər itkilərə baxmayaraq əsas ölkə vətəndaşlarımızın sağlamlığı qorunsun və təmin olunsun. Əlbəttə ki, bu istiqamətdə də ardıcıl və sistemli şəkildə işlər görülür. Əminəm ki, bütün tədbirlər nəticəsiz qalmayacaq və Azərbaycan dünyanın qarşılaşdığı bu böyük bəladan minimum itkilərlə çıxa biləcək”,-deyə, İ.Orucov fikrini tamamlayıb.

# Rauf Əliyev: Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə tam hazırdır



*"26 iyun tarixində Azərbaycan Xalq Cumhuriyyəti dövründə əsası qoyulan Milli Ordumuzun yaradılması günüdür. Hər bir dövlətin varlığının və müstəqilliyinin qorunmasında ordu müstəsna rol oynayır. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli ordusunun yaradılmasına başlanmışdır. Qısa müddət ərzində Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və digər işğal altında olan əraziləri azad etdi. AXC süqut etdikdən sonra sovet hakimiyyəti Milli Ordunu ləğv etdi.*

Onun rəhbərlərinin əksəriyyəti güllələndi. Sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişmədi. Məqsəd aydın idi - azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnmək, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin hazırlanmasına bacardıqca imkan verməmək. Bu siyasətin mahiyyətini yaxşı başa düşən Azərbaycan xalqının görkəmli oğlu, dahi şəxsiyyət Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra, 1971-ci ilin iyunun 20-də C. Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəb təşkil etdi. Dövlət başçımız o vaxtlar azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmalarına nail olmuşdu". Bu fikirləri Milli Məclisin deputatı Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, C. Naxçıvanski adına Hərbi Litseyin milli zabit kadrlarının hazırlanmasında və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin milli ordumuzun formalaşmasında müstəsna rolu olmuşdur. Bu məktəblərin məzunları Birinci Qarabağ müharibəsində də misilsiz qəhrəmanlıqlar göstərmişlər. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra milli ordunun yaradılması qarşıya qoyulan ən vacib məsələlərdən olmuşdur. Ordu quruculuğuna yalnız 1993-cü ildə Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra başlanıldı. Bu dövrdən etibarən ölkədəki silahlı qüvvələr dövlətin tam nəzarətinə keçdi. Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə qısa zaman ərzində Füzuli və Ağdam rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad edildi və təşəbbüs Azərbaycan Ordusunun əlinə keçdi. Azərbaycan Ordusunun Füzuli, Beyləqan, Ağdam və Tərtər istiqamətindəki uğurlu əməliyyatlarını görən və Azərbaycan əsgərinin qəhrəmanlıq nümunələrinə şahid olan düşmən cəbhədə atəşkəs rejminin tətbiq olunmasına razılıq verməli oldu.

Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün- 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu gün rəsmi dövlət bayramı kimi qeyd olunur.

"Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət, qayğısı və rəhbərliyi ilə son illər həyata keçirilən kompleks islahatlar nəticəsində Azərbaycan Ordusu Qafqazın ən güclü ordusuna çevrilmiş, öz hərbi potensialına görə dünya dünya miqyasında 50 ən güclü ordu sırasındadır. 2016-cı ilin Aprel döyüşlərində əldə olunan misilsiz qələbə, 2018-ci ilin may ayında Naxçıvanın Şərur rayonun Ermənistanla sərhəd bölgəsində aparılmış böyük strateji əhəmiyyət daşıyan əməliyyatın uğurla başa çatdırılması deməyə əsas verirki, Azərbaycan Ordusu istənilən vaxt işğal altında olan torpaqlarımızı azad etmək əzmindədir. Bu bir həqiqətdir ki, Azərbaycan ordusu bu gün ən çətin döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olan bir qüvvəyə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin bir əmri kifayyətdir ki, ordumuz işğal olunmuş torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs mübarizəyə başlasın. Son çıxışlarında cənab Prezident İlham Əliyev həmin müqəddəs günün uzaqda olmadığını bildirir.

26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrimizin əsgər və zabitlərini eləcə də bütün Azərbaycan xalqını bu bayram münasibəti ilə təbrik edir, qarşıya qoyulmuş bütün vəzifələrin yerinə yetirilməsində uğurlar arzu edirəm"-deyə, R.Əliyev vurğulayıb.

# Diqqət: Koronavirus peyvəndi belə vurulacaq



İngiltərənin Oksford Universitetindən koronavirusa qarşı hazırlanan peyvənddən ümidverici xəbərlər gəlib. Hazırda kliniki sınaqların 3-cü mərhələsində olan peyvəndin virusa qarşı daha güclü antikor ifraz edə bilməsi üçün qızılca peyvəndinə bənzər formada iki doza tətbiq ediləcəyi açıqlanıb.

Elm adamları peyvəndi donuzlar üzərində ikimərhələli formada sınayıb. "Pioner" adı verilən ilk mərhələ 2 ay əvvəl gerçəkləşib. 28 gün sonra yenidən peyvəndlənən donuzların ifraz etdiyi antikorların səviyyəsi daha yüksək olub. Sınağı həyata keçirən professor Simon Qrehem donuzların insanlara bənzər metabolik sürətə və antikor reaksiyasına sahib olduğunu bildirib. O, insanlarda da bənzər nəticələr əldə edəcəyinə ümid edir.

Bununla birgə, elm adamları potensial peyvəndin COVID-19-a qarşı nə qədər qoruyacağını ehtimal edə bilmir. Virusun daimi mutasiya keçirməsi məlum olduğundan, bir peyvəndin qoruyuculuğunun 6 ay-2 il arasında olduğu bildirilir.

Oksford Universitetinin professoru Adrian Hill, ən yaxşı ehtimalla, peyvəndin bu ilin oktyabr ayında paylanacağını açıqlayıb. Universitet tərəfindən peyvənd sınaqlarının avqust ayında tamamlanacağı proqnozlaşdırılır. Bu çərçivədə universitetlə razılığa gələn "AstraZeneca" firması milyonlarla peyvəndin qlobal miqyasda paylanmasını həyata keçirəcək. Firma şənbə günü 400 milyon peyvəndin Almaniya, Fransa və Niderlanda paylanması üçün razılığa gəlib. Peyvəndin ilk 100 milyonu ilk olaraq İngiltərəyə, 400 milyonu isə ABŞ-a veriləcək.

# "Gəlin, koronovirusa qarşı birgə mübarizə aparaq"



"Koronavirusla müharibənin iştirakçıları da, qəhrəmanları da, qalibləri də, məğlubları da bizik". Bunu SİA-ya açıqlamasında Milli Məclisin müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin sədr müavini, Yeni Azərbaycan qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, koronavirusla müharibənin sonunda kimin hansı statusta olacağı həmin fərdin sosial məsuliyyətindən, sosial özünütəcridindən və karantin rejiminin tələblərinə uymasından asılı olacaq: "Gəlin, koronovirus pandemiyasına qarşı birgə mübarizə aparaq, sosial məsuliyyəti bərabər bölüşək və cəmiyyət olaraq hamımız bu müharibədən qalib çıxaq! Biz buna layiqik! Biz birlikdə güclüyük!".

# Koronavirusa qarşı peyvənd nə zaman hazır olacaq?



Pandemiyanın sürəti getdikcə artır. Avropada vəziyyət yaxşılığa doğru getsə də, qlobal vəziyyət ürəkaçan deyil. Trend-in məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirib.

Onun sözlərinə görə, artıq bir peyvənd sınaq mərhələsindədir. 2020-ci ilin sonuna kimi bu peyvənd əlçatan ola biləcəyi gözlənilir. H.Harmancı əlavə edib ki, bu yaxınlarda Azərbaycana yeni fərdi qoruyucu vasitələr gətirilib. Bundan sonra ölkəyə daha iki partiya qoruyucu vasitələr gətiriləcək.

# Bəhruz Quliyev: "Sağlam sabahımız məhz bu günkü məsuliyyətimizdən asılıdır"

*"Dövlət üzərinə düşən bütün vəzifələri həyata keçirib və indi əsas məsuliyyət bilavastə vətəndaşların üzərindədir". SİA xəbər verir ki, bu sözləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Olaylar.az-a Prezident İlham Əliyevin bir saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında koronavirusla mübarizə ətrafında irəli sürdüyü fikir və tövsiyələrini şərh edərkən deyib.*



Siyasi ekspert qeyd edib ki, COVID-19-la mübarizədə qəbul olunmuş kriteriyalar və əsas faktorlar artıq bir neçə aydır ki, mətbuat və televiziyalar vasitəsi ilə təbliğ olunub və bu gün də həmin təbliğatlar vətəndaşlara təqdim edilməkdədir: "O cümlədən, dövlətimizin başçısı cənab İlham Əliyev buna qədərki çıxışlarında da insanları həmrəy olmağa, məsuliyyətli davranmağa, virus infeksiyasına qarşı birgə mübarizə aparmağa dəvət edib. O cümlədən, dövlətin hazırkı dövrə qədər gördüyü işlərin, həyata keçirilən ardıcıl layihələrin bundan sonra da davam etdiriləcəyini vurğulayan ölkəmizin rəhbəri Azərbaycan xalqının bu sınaqdan da əzmlə, qalib çıxacağını vurğulayıb. Çünki dövlət, bu məsələdə ən incə detallara qədər varıb, o cümlədən, preventiv addımlarını atıb. Baxın, virus yeni yayılmağa başlayarkən artıq səhiyyə sistemində təxirəsalınmaz işlər həyata keçirildi, xəstəxanalar ən müasir avadanlıqlarla təchiz olundu, önləyici sosial tədbirlər reallaşdırıldı, ölkənin ərzaq və xalqın sağlamlığının təhlükəsizliyi istiqamətində gərəkli qərarlar verildi. Xüsusilə, dünyada qoruyucu tibbi maskaların qıt olduğu bir dövrdə Azərbaycanda maska istehsalına başlanıldı, eləcə də, dezinfeksiyaedici məhsulların da istehsalı həyata keçirildi. Bütün bunların köklü məqsədi dövlətin, Prezidentin xalqın sağlamlığını qorumaq, bu təhlükədən ən az itkilərlə çıxmaqdan ibarət idi. Amma etiraf edək ki, bu zəhmətlərin qarşılığı olaraq, vətəndaşlarımız da məsuliyyətli davranmalı, görülən işlərin kölgədə qalmaması üçün tələb olunan qaydalara, tətbiq edilən karantin rejiminə əməl etməlidirlər. Bu gün hər birimiz anlamalıyıq ki, dövlət daim vətəndaşının yanında olub, bundan sonra da olacaq".

"Əgər nəzərə alarsaq ki, Prezident İlham Əliyev dəfələrlə vətəndaşlara qoruyucu maska taxmağı, sosial məsafə saxlamağı, tez-tez əlləri yumağı, gigiyena qaydalarına ciddi əməl etməyi tövsiyə edirsə, Onun özünün də bu tələblərə riayət etdiyini vurğulayırsa, deməli hər birimiz bu tövsiyələri diqqətə almalı, xüsusilə vətəndaşlıq məsuliyyətindən çıxış edib, ətrafımızdakılara da bunları aşılamalıyıq", deyən Bəhruz Quliyev əlavə edib ki, hətta kimlərsə məsuliyyətsiz davranırsa, bunun üçün müvafiq strukturlardan əlavə, özümüz də məsuliyyətsizləri qınamalıyıq: "Əks halda, Azərbaycan İtaliya, İspaniya, ABŞ və s. ölkələrdə baş vermiş insan tələfatları, ağır fəsad faktları ilə qarşı-qarşıya qalmalı olacaq. Təsəvvürünüzə gətirin ki, insanlar yollardaca həyatlarını itirəcək, təhlükə kabusu hər an hər birimizin başının üzərinə ala biləcək. Bu dəhşətləri yaşamamaq üçün məhz dövlət başçımızın tapşırıqlarına, tövsiyələrinə diqqət yetirməliyik. Hətta deyərdim ki, sağlam sabahımız məhz bu günümüzün məsuliyyətindən asılıdır".

Baş redaktoru sonda onu da bildirib ki, koronavirus infeksiyası ilə mübarizə artıq gündəlik həyatımızın bir hissəsinə çevrilib: "Bu baxımdan, hesab edirəm ki, yaşana biləcək təhlükələrin qarşısına sədd çəkmək, ətrafımızın sağlamlığının mühafizəsinin təminatında güclü iradə sərgiləmək hər birimizin dövlətimizin qarşısındakı borcudur. Necə ki, dövlətimiz, Prezident İlham Əliyev cənabları bütün lazımi, müvafiq addımları atır, qərarlar qəbul edirsə, biz də bu işdə daim dövlətimizin, Prezidentimizin yanında olmalı, məsuliyyətimizi dərk edərək, davamlı dəstəyimizi göstərməliyik".

# "Torpaqlarımızı azad etmək iqtidarında olan güclü, qüdrətli ordumuz vardır"

***"Xalqımız müstəqilliyimizin, suverenliyimizin qarantı olan Azərbaycan Ordusunun yaradılmasının 102-cü ildönümünü qeyd etməyə hazırlaşır. 102 illik yol dünənimizə, bugünümüzə baxış fonunda perspektivlərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Bugünkü Azərbaycan Silahlı Qüvvələri 1918-ci ildə yaradılmış Cümhuriyyət Ordusunun layiqli varisidir. 1918-ci il iyunun 26-da Müsəlman Korpusunun əsasında Əlahiddə Azərbaycan Korpusunun təşkilinə başlanılıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yaradıldığı gün - 26 iyun tarixi Azərbaycan Silahlı Qüvvələri Günü kimi qeyd olunur. Həmin tarixdən bu günədək Azərbaycan Ordusu zəngin inkişaf yolu keçib, müdafiə qabiliyyətini gücləndirib və bu gün böyük inamla qeyd edirik ki, işğal altında olan torpaqlarımızı azad etmək iqtidarında olan güclü, qüdrətli ordumuz vardır". Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.***



V.Rəhimzadə bu məqamı da xüsusi qeyd edib ki, 1918-ci ildə dost və qardaş Türkiyədən gələn Qafqaz İslam Ordusunun və Əlahiddə Azərbaycan Korpusunun bölmələrinin torpaqlarımızı, xüsusilə Bakını işğaldan azad etməsi şanlı tariximizə qızıl hərflərlə həkk olunub. 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi ilə yanaşı, Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr olunan hərbi parad keçirildi. Həmin paradda "Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan "Bir millət, iki dövlət" deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik" söyləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirmişdir ki, Azərbaycanın ən böyük dərdi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. İllərdir Vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir.

Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik.

Baş redaktor bildirib ki, regionda sülhün, təhlükəsizliyin qarantı kimi dəyərləndirilən Azərbaycan-Gürcüstan-Türkiyə birliyi, həmrəyliyi bu sahədə mövcud əlaqələrin inkişafından da aydın görünür. Ötən il Azərbaycan-Türkiyə-Gürcüstan müdafiə nazirləri arasında keçirilən görüşlər, Naxçıvanda Türkiyə-Azərbaycan Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq-2019" adlı birgə döyüş atışlı taktiki təlimləri də bunun təsdiqidir. Bütün bu addımlar birlik, həmrəylik çağırışları ilə yanaşı, Azərbaycan Ordusunun malik olduğu imkanların təqdimatı, eyni zamanda, digər sahələr kimi, müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində birgə əməkdaşlığın göstəricisidir.

Vüqar Rəhimzadə vurğulayıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin son 16 ildən artıq dövrdə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ordu quruculuğu və beynəlxalq hərbi-texniki əlaqələrin möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunub: "Dövlətimizin hərbi qüdrətinin artması və Silahlı Qüvvələrimizin regionda peşəkarlıq, təchizat və döyüş qabiliyyəti baxımından ən güclü orduya çevrilməsi bugünümüzün reallıqlarındandır. Hazırda Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Dövlətimizin başçısı İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamı ilə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin bazasında yaradılan Müdafiə Sənayesi Nazirliyi gündən-günə çeşidlərini artırdığı hərbi təyinatlı məhsullarını həm ölkəmizdə keçirilən hərbi pardlarda, həm də beynəlxalq sərgilərdə təqdim etməklə bir daha ordumuzun hansı imkanlara malik olduğunu nümayiş etdirir".

Tarixi paralellər fonunda ölkəmizin tərəqqisinin digər sahələr kimi, ordu quruculuğunun inkişafına da geniş yol açdığını diqqətə çatdıran baş redaktor bildirib ki, 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən, daha dəqiq desək, 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Ordusu özünün inkişaf dövrünü yaşadı, maddi-texniki bazasını daha da möhkəmləndirdi: "Müstəqilliyimizin ilk illərində ölkəmizə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan şəxslərin rəhbərlik etməsi bütün sahələrdə uğursuzluqlara yol açmışdır. Ölkədə xaos, anarxiya, özbaşınalıq hökm sürür, silahlı qruplaşmalar arasında kreslo uğrunda savaş geniş vüsət alırdı. Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının ifadəçisi kimi çıxış edərək, ərazilərimizin biri-birinin ardınca işğalına göz yumurdu. Ümummilli Lider hakimiyyətə qayıdışı ilə Azərbaycanı yaşadığı bu böhrandan, qarşıdurmalardan, xaosdan, anarxiyadan, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Azərbaycanda müasir ordu quruculuğunun əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyuldu. Qısa müddətdə ordumuz qarşısına qoyulan hər bir vəzifəni yerinə yetirməyə qadir olan mütəşəkkil hərbi qüvvəyə çevrildi. Son 16 ildən artıq dövrdə ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu qabaqcıl orduların sırasında layiqli yer tutub. Ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Daim bu reallıq diqqətə çatdırılır ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü, qüdrətli ordunun olması mütləqdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir".

"Bu gün Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etmək gücündədir" söyləyən V.Rəhimzadə diqqəti 2016-cı ilin Aprel döyüşlərinə və 2018-ci ilin Naxçıvan qələbələrinə yönəldib. Vurğulayıb ki, Azərbaycan Ordusu bu iki qələbə ilə bir daha hansı imkanlara malik olduğunu həm işğalçı Ermənistana, həm də dünyaya çatdırdı. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış əraziləri Ermənistan tərəfindən işğal edilib. Dünya birliyi və bütün beynəlxalq təşkilatlar ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir, eləcə də Azərbaycanın haqlı mövqeyini müdafiə edirlər. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, erməni işğalçılarının ərazilərimizdən qeyd-şərtsiz çıxarılması öz əksini tapıb. Bununla yanaşı, digər beynəlxalq təşkilatların və dövlətlərin qərar və qətnamələrində Azərbaycanın dəyişməz mövqeyi dəstəklənir. Münaqişənin həlli üçün möhkəm hüquqi baza mövcuddur. Ancaq Ermənistan beynəlxalq hüquq normalarına məhəl qoymur və işğalçılıq niyyətindən əl çəkmir.

Vüqar Rəhimzadə qeyd edib ki, dövlətimiz, möhtərəm Prezidentmiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordumuza, onun şəxsi heyətinə göstərilən diqqət və qayğı bir ali məqsədə xidmət edir- Torpaqlarımız erməni işğalçılarından azad edilsin, dövlətimizin ərazi bütövlüyü, soydaşlarımızın pozulmuş hüquqları bərpa olunsun, regionda sülh, əmin-amanlıq bərqərar edilsin: "Dağlıq Qarabağ problemini ümumilikdə regionda iqtisadi tərəqqiyə, təhlükəsizliyə böyük əngəl kimi dəyərləndirən, qətnamələrində ədalət meyarını öndə saxlayıb, beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasına çağırış edən beynəlxalq təşkilatların, dövlətlərin işğalçı Ermənistana "dur" demələrinin zamanı çoxdan çatıb. Bu gün Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək, suvenerliyimizi qorumaq, ərazi bütövlüyümüzü təmin etmək istiqamətində səylər göstərməklə yanaşı, sülhməramlı əməliyyatlarda da iştirak edərək beynəlxalq sülhə və təhlükəsizliyə ciddi töhfələr verməkdədir".

26 İyun- Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə xalqımızı təbrik edən baş redaktor bu arzusunu, istəyini də ifadə edib ki, gün o gün olsun Azərbaycan mətbuatı işğal altında olan torpaqlarımızın azad edilməsi sevincinin müjdəçisi olsun: "Xalqımız tam əmindir ki, dövlətimizin qətiyyətli mövqeyi, xalqımızın iradəsi, gündən-günə artan beynəlxalq dəstəyin, həmçinin güclü, qüdrətli ordumuzun sayəsində tezliklə torpaqlarımız işğaldan azad olunacaq, üçrəngli bayrağımız bütün Qarabağ ərazilərində də dalğalanacaq, Azərbaycanın ərazi bütövlüyünün təminatı, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə həlak olan oğul və qızlarımızın ruhu şad olacaq".

***Ceyhun Rasimoğlu***

# DOST mərkəzləri və 142 - "Çağrı Mərkəzi" 3 gün işləməyəcək



26 iyun Silahlı Qüvvələr Günündə DOST mərkəzləri və Çağrı Mərkəzi 142 fəaliyyət göstərməyəcək. DOST Agentliyindən SİA-ya verilən məlumata görə, 27-28 iyun tarixləri şənbə və bazar günlərinə təsadüf etdiyi üçün həmin günlər də qeyri-iş günüdür. 29 iyun tarixindən yenidən xidmətinizdəyik.

Xatırladırıq ki, Nazirlər kabineti yanında Operativ qərargahın qərarına əsasən 5 iyul tarixinədək vətəndaş qəbulu aşağıdakı şəkildə həyata keçirilir: Vətəndaşların müraciətlərinə yalnız e-poçt və Çağrı Mərkəzi 142 vasitəsi ilə baxılır; Vətəndaşların yerində qəbulu dayandırılır; Mərkəzlər və 142 - "Çağrı Mərkəzi" şənbə və bazar günü fəaliyyət göstərmir.

# İranlı general: İran ilə Azərbaycanın sərhədi dostluq, qardaşlıq və sülh sərhədidir

İran ilə Azərbaycanın sərhədi dostluq, qardaşlıq və sülh sərhədidir. SİA xəbər verir ki, bu sözləri İranın Sərhəd Mühafizə Xidmətinin komandanı general Əhməd Əli Güdərzi deyib. Azərbaycan Respublikası ilə həmsərhəd olan Ərdəbil vilayətinin Nemin bölgəsində sərhəd postlarını yoxlayan general onu da qeyd edib ki, iki qonşu və dost dövlət arasında sərhədlərin mühafizəsi məsələsində heç bir problem yoxdur. Azərbaycan ilə İran sərhədçilərinin qarşılıqlı əməkdaşlıq əlaqələri sahəsində mövcud olan problemlər çoxdandır ki, aradan qaldırılıb və hazırkı faydalı əməkdaşlıq davam edir. Generalın sözlərinə görə, iki dost dövlətin sərhədçilərinin əməkdaşlığı nəticəsində sərhədlərimizin təhlükəsizliyi təmin edilib.




# 26 İyun Silahlı Qüvvələr Günüdür

*Azərbaycanın iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır.*

Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - Əlahiddə Azərbaycan Korpusunun yaranıb. Həmin il mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndə qeyd edilib ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalı və hökumət tərəfindən 25 min nəfərlik ordu yaradılması vəzifəsi irəli sürüldükdən sonra, avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olunub. Qısa müddətdə Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad edə bilib.

1920-ci ildə Azərbaycan sovet işğalına məruz qaldıqdan sonra Hərbi Nazirlik ləğv olunub. Sovet İttifaqının süqutundan sonra müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev tərəfindən ordu quruculuğu sahəsində böyük işlər görülüb.

Xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayının 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ordunun dirçəldilməsi prosesinə başlandı. Özünümüdafiə dəstələri və könüllü batalyonlar ləğv edildi və beləliklə, Ulu Öndər Heydər Əliyev vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusunu yaratdı.

1998-ci ilin mayında Prezident Heydər Əliyevin Fərmanı ilə iyunun 26-sı Cümhuriyyətin varisi olan müstəqil Azərbaycan Respublikasında Silahlı Qüvvələr Günü elan edilib. Bu gün sabitlik, iqtisadi inkişaf və güclü müasir ordunun formalaşdırılması müasir Azərbaycanın əsas göstəricilərindəndir. Son illər Azərbaycanda böyük miqdarda müasir tanklar, hərbi nəqliyyat vasitələri, HHQ sistemi, tank əleyhinə raket və artilleriya sistemi, pilotsuz uçuş aparatları alınıb. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi.

Son illər ərzində, Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi və silahlı qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsi sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında böyük işlər görülüb. Ölkəmizin hərbi silah istehsalçısıdır və öz hərbi məhsullarını xarici ölkələrə ixrac edir. Bu gün Azərbaycan hərbi gücə və potensiala malikdir. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracaq.

Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var.

***Zümrüd BAYAMOVA***

# Nüfuzlu "China Daily" qəzeti bir səhifəsini Azərbaycana həsr edib

*Çinin ölkədə və xaricdə çoxsaylı oxucusu olan ingilisdilli "China Daily" qəzetinin 25 iyun nömrəsinin "Tətil-səyahət" səhifəsi bütünlüklə Azərbaycana həsr olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycana həsr olunan səhifədə ölkəmizin turizm potensialı, mədəniyyəti, adət-ənənələri, coğrafi mövqeyi, gəzməli-görməli yerlərindən söz açılıb.*


HOLIDAYTRAVEL
Azerbaijan celebrates its past and present for world to see
'Land of Fire' a special mix of ancient history and modern culture
Interesting facts part of nation's uniqueness
Local vintages make touring the multicultural country a tasty experience

Qəzetin ölkəmizdə səfərdə olmuş əməkdaşı Ren Çi qeyd edir ki, Avropa və Asiyanın tarixi imperiyalarının irsinə sahib olan "Odlar yurdu" hazırda neftlə zəngin, Formula-1 və futbol üzrə Avropa liqasının oyunlarına ev sahibliyi edən bir ölkədir. Şərqi Avropa və qərbi Asiyanın yolayrıcında, Cənubi Qafqazda, Xəzər dənizinin sahilində yerləşən Azərbaycandakı Azıx mağarası və Quruçay mədəniyyəti, UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilən Qobustan qoruğundakı qaya rəsmləri bu diyarın dünyada ən qədim insan məskənlərindən biri olduğunu təsdiqləyir.

Qeyd olunur ki, Azərbaycan landşaft zənginliyinə malik ölkədir. Turistlər elə paytaxtdan başlayaraq ölkənin cazibəsini hiss edirlər. Bakı həm zəngin mədəniyyətə, həm də beynəlxalq repertuara söykənən tədbirlərin geniş spektrini təklif edən bir çox imkanlara malikdir. Onlar arasında məşhur memar Zaha Hadidin dizayn etdiyi Heydər Əliyev Mərkəzi, habelə Müasir İncəsənət Muzeyi, Milli Tarix Muzeyini və s. göstərmək olar.

Müəllif Azərbaycan Milli Xalça Muzeyi haqqında geniş məlumat verərək qeyd edir ki, bu məkan nadir xüsusiyyətinə görə xarici turistlərin mütləq baş çəkməli olduğu yerlərdən biridir. Binası bükülmüş xalçaya oxşayan muzeydə Azərbaycanın müxtəlif dövrlərə və toxuma texnikalarına aid xalça və digər toxuma nümunələri sərgilənir. Bakının mədəni müxtəlifliyindən söz açan müəllif Azərbaycan paytaxtının həm də coğrafi xüsusiyyətlərinə görə diqqət çəkdiyini yazır. Belə ki, Bakı dəniz səviyyəsindən 28 metr aşağıda yerləşən paytaxt olmaqla yanaşı, həm də dəniz səviyyəsindən aşağıda yerləşən ən böyük şəhərdir. Bakının ən qədim və sakit məhəlləsi olan "Köhnə şəhər" və ya İçərişəhər qum daşından ibarət dar küçələrin labirintidir. Tarixi İpək yolu dövründə İçərişəhər Çin ilə Avropa arasındakı marşrutun əsas nöqtələrindən biri olub.

Jurnalist Ren Çi yazır ki, İçərişəhərdə gəzəndə XII əsrdə inşa edilən binalara toxunarkən, 3 mavi göydələnin ("Alov qüllələri") daxil olduğu şəhərin modern hissəsinin uzaqda olmadığını görürsən. Bəlkə də Bakının ən böyük təzadı ondan ibarətdir ki, siz onun futuristik görməli yerlərinə baxanda əslində onun keçmişinə də nəzər salırsınız.

Məqalədə UNESCO-nun Dünya İrs Siyahısında olan Şəki Xanlarının Sarayından da söz açılıb. Bundan başqa, səhifədə Azərbaycanın şərabçılıq ənənələrindən bəhs edən məqalə də yerləşdirilib.

Qeyd edək ki, ümumilikdə, 100 milyondan çox çap, onlayn, sosial şəbəkələr, mobil cihazlar üçün tətbiqlər üzrə abunəçisi olan "China Daily" təkcə Çində deyil, eləcə də dünyada ingilis dilində nəşr edilən ən populyar qəzetlərdən biridir. Onun xarici ölkələrdəki oxucularının sayı Çindəki oxuculardan çoxdur. Qəzetin Çində buraxılan əsas nəşrinə paralel olaraq, ABŞ-da (Nyu-York), Avropada (London), Afrikada (Nayrobi) və Asiya ölkələri üçün Honkonqda ayrıca versiyaları dərc olunur.

## Əmanətlərin Sığortalanması Fondu: 21 bankın kredit portfelinin 58 faizi təminatsızdır



Lisenziyası ləğv edilən 21 bankın bu günə kredit portfeli 5,2 milyard manat təşkil edir. Bunun təxminən 58 faizə qədəri təminatsız kreditlərdir. Bu barədə Əmanətlərin Sığortalanması Fondunun (ADIF) icraçı direktoru Tural Piriyev iyunun 25-də keçirdiyi mətbuat konfransında deyib.

"Bu məbləğin 3,6 milyard manatı əsas borc, 1,6 milyard manatı isə faiz borcudur. Onların bir çoxu üzrə ödəniş edilir. Müəyyən problemli kreditlər də var. Müştərilərlə görüşlər keçirilir, onların borcunun restrukturizasiyası ilə bağlı tədbirlər görülür. Son bir ayda bir neçə görüş təşkil olunub. Azərbaycan Mərkəzi Bankı ilə də müzakirələr aparılır", - deyə T.Piriyev vurğulayıb.

## Buğda idxalı azalıb

Bu ilin 5 ayında ölkəyə 341,8 min ton buğda idxal edilib. AZƏRTAC Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verir ki, hesabat dövründə idxal edilən buğdanın dəyəri 74,6 milyon ABŞ dolları olub. Xatırladaq ki, keçən ilin yanvar-may aylarında ölkəyə 124,4 milyon dollarlıq 551,4 min ton buğda idxal edilib.



# Azərbaycan virusla öz hesabına və uğurla mübarizə aparır

***Azərbaycana olan münasibətlər heç də əvvəlki kimi, məsələn ötən əsrin sonlarında olduğu kimi deyil. Bunun çox köklü və əsaslı səbəbi var və münasibətlərin dəyişməsi də əbəs yerə deyil. Bir zamanlar Azərbaycan beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətdə olduğu halda, daha dəqiq desək, ötən əsrin sonlarında külli miqdarda xarici borclanma olduğu halda, hazırda ölkəmizin xarici borcu çox azdır və heç bir asılılıqdan söhbət belə gedə bilməz. Həmin dövrlərdə, yəni, ötən əsrin 90-cı illərində götürülən borc vəsaitləri ölkəmizdə büdcə kəsirinin örtülməsinə məsrəf edilirdisə, hazırda bu belə deyil və indi hətta elə ölkələr vardır ki, Azərbaycana borcludur. Münasibətlərin dəyişməsinə də təsir edən əsas səbəblərdən biri də elə məhz budur.***




Asiya İnkişaf Bankının rəhbərliyi ilə dövlət başçımız arasında keçirilən videokonfrans bir sıra məqamlara da aydınlıq gətirdi. Hətta bu videokonfrans ölkəmizə olan münasibətlərin dəyişdiyini bir daha isbatladı. Sözügedən videokonfransda Asiya İnkişaf Bankı tərəfindən COVID-19 pandemiyası ilə əlaqədar ölkəmizdə atılan addımlar ciddi şəkildə dəstəkləndi. Bu dəstək, bu münasibət ilk dəfə də deyildi və bildiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatı da pandemiya dövründə Azərbaycanın atdığı addımları təqdir edir və alqışlayır. Belə bir münasibətin özü də təsadüfi deyil və xatırlatmaq yerinə düşərdi ki, mövcud vəziyyətlə mübarizə məqsədilə maliyyə dəstəyi almaq üçün beynəlxalq maliyyə institutlarına müraciət edən 150 ölkə sırasında Azərbaycanın adı yoxdur və ölkəmiz öz daxilində mübarizəyə vəsaitlər sərf etməklə yanaşı hətta digər qurumlara və ölkələrə maddi yardımlar da ayırıb. Videokonfransda Cənab Prezident İlham Əliyev şəxsən bu barədə xatırladıb da.

"Bilirsiniz ki, biz üzərimizə düşən işi layiqincə yerinə yetiririk və bizim xərclərimiz daim mənfəətimizdən aşağı olub. Mən deyərdim ki, ehtiyatları qorumaq və artırmaq bizim başlıca iqtisadi hədəfimizdir", deyə Cənab prezident diqqətə çatdırıb.

Əslində, bu ilin əvvəlindən başlayaraq meydana gələn koronavirus adlı bəla dünyanı cənginə alıb və dünyanın əksər ölkələri çətinliklərlə üz-üzə qalıb. Mövcud vəziyyətin dünyanın bütün ölkələrinin iqtisadiyyatına, əlaqələrinə, münasibətlərinə, nəticədə gəlirlərinə mənfi təsir etdiyi günün reallığıdır. Bu reallıqla elə ölkəmiz də üzləşib. Amma, məsələ burasındadır ki, digərlərindən fərqli olaraq, Azərbaycan virusla, pandemiyanın gətirdiyi fəsadlarla, çətinliklərlə özü, öz hesabına uğurla mübarizə aparır və müsbət nəticələr əldə edir.

Qeyd olunduğu kimi bir çox ölkələr maliyyə problemləri ilə bağlı beynəlxalq maliyyə institutlarına dəstək üçün müraciət edib və yardım gözlədiyi bəllidir. Bir növ onlar dəstək almaq məcburiyyətindədirlər və bu dəstək olmadan keçinilməyəcəyinin fərqindədirlər. Amma, Azərbaycan nə Beynəlxalq Valyuta Fonduna, nə də Dünya Bankı kimi maliyyə qurumlarına müraciət etməyib və əslində buna ehtiyacı da yoxdur. Bu isə o deməkdir ki, ölkəmizin bundan sonra da həmin qurumlara belə bir müraciət edəcəyi gözlənilmir. Səbəb isə odur ki, ölkəmizin mövcud makroiqtisadi göstəriciləri və maliyyə vəziyyəti kifayət qədər dayanıqlıdır. Bu dayanıqlılıq özü də səbəbsiz deyil və qeyd etmək yerinə düşərdi ki, 2018-ci ilin ikinci yarısından başlanılan islahatlar öz müsbət nəticələrini artıq verib və nəticələr mövcud dayanıqlıqda artıq mühüm rol oynayır. Digər tərəfdən də, Cənab Prezidentin dediyi kimi, xərclərimiz mənfəətimizi heç vaxt üstələməyib. Belə olan halda borc götürməyə nə kimi ehtiyac ola bilər axı?

Maliyyə Nazirliyinin məlumatına görə, Azərbaycanın birbaşa xarici dövlət borcu 8.320,0 milyon ABŞ dollarıdır və bu rəqəm 2019-cu il üzrə Ümumi Daxili Məhsulun 17,3 faizini təşkil edir. Bu isə o deməkdir ki, dövlət tərəfindən bu borc istənilən anda bağlanıla bilər və bu heç bir çətinlik də törətmir. Yəni, hiss olunmayacaq dərəcədədir. Xarici dövlət borcu nədir? Xarici dövlət borcu beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlər, beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş dövlət qiymətli kağızlarıdır. Onu da nəzərə almaq lazımdır ki, xarici dövlət borcu o zaman kritik sayıla bilər ki, o Ümumi Daxili Məhsulda 30 faizdən yuxarı həddə olsun. Deməli, ölkəmiz hətta bundan sonra xarici borclanmanı davam etdirə də bilər. Amma, ölkə başçısının rəhbərliyi ilə aparılan düzgün, uğurlu siyasət sayəsində buna heç ehtiyac və lüzum yoxdur.

Doğrudur, borclanma, xarici dövlət borcu heç də təsadüflərdən yaranmır və borclanma bir sıra səbəblərlə bağlı ola bilir. Məsələn, devalvasiyalarla əlaqədar milli valyutanın dəyərdən düşməsi, ölkəmizin təşəbbüskarı olduğu və böyük regional, eləcədə də qlobal əhəmiyyət daşıyan layihələr üçün borclanma ola bilər ki, bunlar nəinki başadüşüləndir, həm də vacibdir. Yəni, nümumə olaraq qeyd olunan hallarda böhranlı vəziyyətin aradan qaldırılması, eləcə də layihələrin reallaşsırılması məqsədi ilə xarici dövlət borcuna ehtiyac duyulur və bu hal digərləri üçün də xarakterikdir.

Məsələ burasındadır ki, hazırki vəziyyətdə, yəni pandemiya şəraitində yuxarıda sadalanan hallar olmadan belə bir sıra, özü də inkişaf etmiş ölkələr belə beynəlxalq maliyyə qurumlarına əl açmalı olduqları halda, Azərbaycan buna ehtiyac duymadı. Doğrudur, hərhansı beynəlxalq qurumun ölkəmizə maliyyə ayırması məsələsində istər vəsaitin alınması, istər zəmanəti, istərsə də qaytarılması yönündə zərrə qədər problem ola bilməz. Əvvəla, beynəlxalq maliyyə qurumları ölkəmizin almış olacağı vəsaitləri tez bir zamanda qaytarmaq potensialına malik olduğunu yaxşı bilir. Digər tərəfdən də bu vəsaitlər üçün yetərincə zəmanətlər də var və buna həmin qurumların bir zərrə şübhəsi də yoxdur. Amma, bir halda ki, mövcud şəraitlə bağlı vəziyyətin öhdəsindən lazımınca gəlmək üçün ölkəmizin potensialı, qüdrəti var, borclanma nəyə gərəkdir? Çox sevindirici haldır ki, xarici dövlət borcunun cəlb olunmasına dövlətimizin ehtiyacı yoxdur və bu çətin dövrdə, pandemiyanın bütün dünya iqtisadiyyatını, yaşam tərzini belə çökdürdüyü bir zaman fasiləsində ölkəmiz virusla da, onun yaratdığı fəsadlarla da, mövcud şəraitlə də öz hesabına və uğurla mübarizə aparır.

***İnam Hacıyev***

# "Ermənistan hakimiyyəti heç bir uğura imza ata bilmir"

"Ötən gün Moskvada Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə hərbi parad keçirilib. Bu faşizm üzərində bir qələbədir. Təbii ki, buna müxtəlif cür yanaşanlar var. Amma bizim Böyük Vətən müharibəsinə, ikinci Dünya Müharibəsi 700 minə yaxın övladımız gedib. Onun 300 mindən çoxu şəhid olub. Onların hər biri qəhrəmandır. Bu qələbənin əldə edilməsində Bakı neftinin müstəsna xidməti var. Bu gün hər kəs Bakı neftindən danışır. Amma o zamanlar Bakıda hospitallar olub. On minlərlə, yüz minlərlə insan gəlib burada müalicə olunub. Eləcə də xeyli sayda silahlar üçün mərmilər Bakıda hazırlanıb". Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib.



Hərbi ekspertin sözlərinə görə, Azərbaycan oğulları cəbhədə müstəsna qəhrəmanlıqlar göstəriblər: "Sovet İttifaqının ədalətsizliyinə görə onların bir çoxu orden və medallar almayıblar. Həzi Aslanov daxil olmaqla yüzdən artıq qəhrəman oğullarımıza qarşı haqsızlıq olub. Həmçinin Azərbaycanın şair və yazıçıları, incəsənət, mədəniyyət xadimləri - Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Şövkət Ələkbərova, Sara Qədimova, Üzeyir Hacıbəyov və s. cəbhə bölgələrinə gediblər və onlar ön xətdə döyüşən hərbiçilərimizlə bərabər olublar. Moskvada keçirilən hərbi paradda da Azərbaycanın iştirak etməyə haqqı var.

Azərbaycan dövlətinin digər dövlətlərdən fərqi ondan idi ki, öz üçrəngli bayrağımız öndə getməklə 75 nəfər hərbi qulluqçumuz, Azərbaycanın hərbi formasında və ölkəmizin istehsal etdiyi silahlarla silahlanmış şəkildə paraddan keçdilər. İşğalçı dövlət isə sovet Ermənistanının bayrağı və Rusiya ordusunun silahları ilə hərbi paraddan keçdi. Təbii ki, bu da Ermənistanın müstəqil dövlət olmadığını və hələ də Rusiyanın forpostu olduğunu göstərir. Azərbaycan əsgərlərinin isə meydanda üçrəngli bayrağımızla keçməsinin özü Azərbaycan dövlətinin nə qədər müstəqil siyasət yeritdiyini göstərir. Qondarma Dağlıq Qarabağ separatçı rejimin bayrağı olan medalın parad zamanı erməni hərbi dəstəsinə rəhbərlik edən polkovnik Aşot Akopyanın sinəsində olması isə gülünc doğurdu. O rejimi heç Ermənistan özü tanımır və tanıyada bilməyəcək. Son dövrlər Ermənistan hakimiyyəti heç bir uğura imza ata bilmir və bu cür cığallıqlar edir. Onlar ya Şuşaya gəlir, ya orada andiçmə keçirir, ya da beynəlxalq tədbirlərdə oğurluq Qarabağın bayrağını göstərmək istəyirlər. Bunların heç birini dünya qəbul etmir və Azərbaycan öz torpaqlarını azad edəcək".

***Ceyhun Rasimoğlu***

# Yol polisi: Karantin rejimini pozan 1021 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polis İdarəsi iyunun 24-də xüsusi karantin rejiminin pozulmasına görə inzibati məsuliyyətə cəlb edilmiş hərəkət iştirakçılarının sayı və görülən tədbirlər barədə məlumat yayıb.



İdarədən AZƏRTAC-a bildiriblər ki, koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazilərində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə iyunun 24-ü saat 00:00-dan iyunun 25-i saat 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 852 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə 167 nəfər həmin Məcəllənin 211.2-ci və eyni əməllərin il ərzində təkrar törədilməsinə görə Məcəllənin 211.3-cü maddəsi ilə 2 nəfər olmaqla ümumilikdə 1021 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib. Gün ərzində xüsusi karantin rejimi sərtləşdirilmiş inzibati ərazilərin sərhədlərində yerləşən karantin postlarında aparılan yoxlamalar zamanı 195-i rayon, 185-i isə paytaxt istiqamətinə olmaqla 380 avtomobil geri qaytarılıb.

# "Ağ Partiya" ilə "Milli Şura" arasındakı savaş davam edir

## Tural Abbaslı Cəmil Həsənliyə qarş sərtı ittihamlar irəli sürməkdədir

***"Milli Şura"nın sədri Cəmil Həsənlinin müxalifət düşərgəsini hədəfə alaraq təhqir obyektinə çevirməsi hələ də düşərgədə ən çox müzakirə olunan mövzu olaraq qalmaqdadır. O da əbəs deyil ki, konstruktivlik meyllərindən çıxış edən müxalif təşkilatlar "Milli Şura"nı ciddi siyasi qurum hesab etmədiklərini, eləcə də bu kimi sərsəmliklərin nə "Milli Şura"ya, nə də bu qurumu idarə edən xarici dairələrə heç bir səmərə verməyəcəyini deyirlər. Məsələn, "REAL" partiyasının aparıcı şəxsləri ilə eyni vaxtda digər müxalifət təşkilatı - Tural Abbaslının sədri olduğu "Ağ Partiya" da bənzər mövqedən çıxış etmişdi.***



Məhz sözügedən qarşıdurmalar sonradan sosial şəbəkədə ağır tənqidlərə, hətta söyüşlərə çevrildi ki, bu gün həmin savaş tam sürəti ilə davam etməkdədir.

Qeyd edək ki, bu məsələdə AXCP sədri Əli Kərimlinin "facebook" trolları onun təlimatlarına əsasən, aşırı təhqirlərlə qarşı tərəflərin ittihamlarını kölgədə qoymağa cəhd göstərməkdədirlər. Ancaq bu plan da özünü doğrultmadı və bunun sübutudur ki, söz atışmaları hələ də davam edir, tərəflər bir-birlərini müxalifətə xəyanət etməkdə günahlandırırlar.

### "2013-cü ildə Cəmil Həsənlini heç kim tanımırdı, indi də tanımır"

Xatırladaq ki, məhz bu ərəfələrdə T.Abbaslı C.Həsənliyə hələ 2013-cü ildə keçirilmiş prezident seçkisində ən ciddi dəstəyi göstərdiklərini iddia edərək, bu gün "Milli Şura" sədrinin onları "uşaq-muşaq" adlandırmasına kəskin tonda cavablar verib. Ümumiyyətlə, "Ağ partiya" sədri daha öncələr mediaya açıqlamadığı faktları ictimailəşdirərək, müxalifətyönlü saytların birinə C.Həsənlini, eləcə də "Milli Şura"nın dirijoru hesab edilən AXCP sədri Ə.Kərimlini ifşa edən açıqlamalar verib. Beləliklə, müxalifət düşərgəsində artıq özünəməxsus yerləri olduğunu iddia edən T.Abbaslı C.Həsənliyə və ətrafına "biz təsadüfi adamlar deyilik" mesajını verib, üstəlik, digər sərt ifadələrini işə salıb. Misal üçün, o, özünün və dəstəkçilərinin C.Həsənlinin heç vaxt ciddi siyasətçi olaraq qəbul etmədiklərini vurğulamaqla yanaşı bldirib ki, 2013-cü ildə ölkənin siyasi arenasında bu ad heç bir məna kəsb etmirdi. "Yalnız 2005-ci ildə partiyanın qərarına (AXCP-nin parlament seçkilərini boykot qərarı nəzərdə tutulur - R.N.) tabe olmayıb, parlamentdə oturduğuna görə partiyadan qovulan orta statistik tarixçi, alim kimi yadda qalırdı"-deyən Abbaslı, Həsənlinin nəinki Biləcəridən, hətta yaşadığı ərazidən - Yasamaldan o tərəfdə tanınmadığını xüsusi ilə xatırladıb.

Müxalifətçi partiya sədri iddia edib ki, ümumiyyətlə, C.Həsənlinin siyasətə gətirilməsində vaxtilə özünün təmsil olunduğu Müsavat partiyasının rolu var və bu gün qarşı tərəf bu faktı unutmamalı, zamanında ona siyasi dəstək göstərmiş şəxslərə həqarətlər etməməlidir, əksinə, boynuna götürdüyü öhdəliklərə əməl etməlidir: "Həmin dönəmdə C.Həsənli bizim qarşımızda öhdəlik götürmüşdü ki, əgər seçilərsə, o zaman 2 il müddətinə parlament seçkiləri keçirəcək və daha sonra prezidentlikdən istefa verəcək. Eyni zamanda, siyasətdən birdəfəlik gedəcəyinə dair öhdəlik də götürmüşdü, heç bir partiyanın üzvü belə, ola bilməzdi. Qeyd edim ki, C.Həsənli "Milli Şura"nın sədri postuna siyasətçi kimi deyil, sırf bitərəf ziyalı kimi seçilib".

### "Cəmil Həsənli eyforiyaya qapılıb"

"Ağ Partiya" sədri C.Həsənlinin Rüstəm İbrahimbəyovun dublyor aktyoru olduğunu deyib və onu da xatırladıb ki, məhz 2013-cü ildə "Milli Şura"da Müsavat-AXCP maraqlarınln kəskin qarşıdurması yaşanırdı. "Buna görə də C. Həsənli R.İbrahimbəyovun dublyor aktyoru kimi "Milli Şura"ya sədr seçildi"-deyən T.Abbaslıya görə, sadəcə olaraq, Həsənli bu rola o qədər aludə oldu ki, artıq özünü "böyük siyasi xadim" hesab edir. "Əgər bununla bağlı bir sorğu keçirilsə, onda "Milli Şura" Cəmil Həsənlini namizəd elan etdiyi günə qədər cəmiyyətdə onun adının xatırlanmadığını müəyyənləşdirmək olar"-müxalifətçi partiya sədri bildirib.

O, C.Həsənlinin eyforiyaya qapıldığını, hətta bu məsələyə o qədər aludə olduğunu sanaraq, onlara dəstək göstərməyənləri müxalifətçi kimi qəbul etməməsi irriasını siyasi klounluq kimi qiymətləndirib. SİTAT: "C.Həsənli hazırda eyforik vəziyyətdədir. O, artıq kiməsə müxalifət lisenziyası verə biləcəyini düşünəcək qədər bir atmosferə salınıb və zənn edir ki, kimisə müxalifət saya və ya kimisə saymaya bilər. Guya ki, onun fikri kimlər üçünsə önəmlidir. Ancaq o, kökündən yanılır və yaxşı olardı ki, özünün haradan-haraya gəlməsi barədə düşünsün".

Müxalifətçi partiya sədri zamanında belə bir şəxsi siyasi arenaya tanıtdırdığına əfsuslandığını etiraf edib: "Təəssüf edirəm ki, biz vaxtikən gəncliyimizi fəda edib, belələrini tanıtmışıq. Əgər biz zamanında belələrini yox, özümüzü tanıtsaydıq, bu gün bu məsələləri diskussiya etməzdik".

### "Adam iki dəfə deputat kreslosunda əyləşib, indi isə seçkiyə qatılanları ittiham edir"

Abbaslıya görə, bu gün C.Həsənli, ya da xarici ölkələrdə yaşayan "siyasi mühacirlərin" söyüş səhnəsi fonunda siyasət yürütmələri həqiqətən də təəssüfdoğurucu bir haldır. "Siyasət bu deyil. Siyasət hər cəmiyyətin elitar peşəsidir, burada səviyyə, qırmızı xətlər, norma və dəyərlər olmalıdır. Siyasətdə "Atam mənə kor deyib, gələnigedəni vur deyib" prinsipi olmamalıdır"-Abbaslı bildirib və əlavə edib ki, ümumiyyətlə, C.Həsənli heç vaxt siyasi analiz edə bilməz. Çünki bu arena onluq deyil və olmayacaq: "Diqqət yetirin, seçkiyə gedənlər satqın adlandırılır. Halbuki 2000-2010-cu illərdə C.Həsənli deputat olub. Adam iki dəfə deputat kreslosunda əyləşib, indi isə seçkiyə qatılanları ittiham edir. Odur ki, boykotçuların mövqeyində heç bir arqument yoxdur. Məsələn, 2008-ci ildə seçkiləri boykot edənlər 2013-cü ildə seçkiyə qatılıb, 2018-də yenidən boykot edirlər. Bu, məntiqsizdir. Çünki eyni şərtlərlə keçirilən prosesdə gah iştirak, gah da boykot edirlər. Seçki həmin seçki, onu keçirən həmin qurumdur, deməli, sənin özün üçün nəsə fərqlidir, problem səndədir. Ümumiyyətlə, bu halda ortaya maraqlı sual çıxır. Görəsən, bu gün prezident seçkilərini boykot edənlər parlament seçkilərində iştirak edəcəklər? Məntiqlə parlament seçkilərinə də qatılmamalıdırlar. Gözləyək, görək nə olacaq. Lakin indidən sizi əmin edirəm ki, hamısı deputatlığa namizədliyini irəli sürəcək".

Beləliklə, C.Həsənlinin T.Abbaslını və s. müxalifətyönlü tərəfləri təhiqr hədəfinə götürməsi onun özünə ciddi zərbə vurmuş oldu. Artıq ortaya çıxan ciddi və danılmaz faktlar da bütün deyilənləri təsdiq etmiş olur. Hər halda, görünən "dağa" nə bələdçi, yaxud, kor-kor, görgör məsəlini də buraya əlavə etmək olar...

***Rövşən NURƏDDİNOĞLU***

---

# "Onların bu eqoistik hərəkətləri əslində hüquq pozuntusudur"

***"Hökumətinin həyata keçirdiyi bütün tədbirlərə baxmayaraq, koronavirusla bağlı məlumatlar yeterincə qorxuncdur. Yoluxmalar bu sürətlə davam edərsə, xəstəxanalarda yer olmayacaq, həkim çatışmazlığı kimi problemlə də üzüzə qala bilərik. İyunun 24 - də Prezident Ilham Əliyev I vitseprezident Mehriban xanım Əliyeva ilə birlikdə Gəncədə modul tipli xəstəxana korpusunun açılışı zamanı etdiyi çıxışında bu məqamları xüsusi vurğuladı". Bunu SİA-ya Yurddaş Partiyasının sədri Mais Səfərli deyib.***

Partiya sədrinin sözlərinə görə, virusun yayılması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə bir müddət əvvəl edilən əlavə və dəyişikliklər də hələ ki, nəticə verməyib. Bildiyiniz kimi, sözügedən dəyişikliklər karantin qaydalarını pozan, əməlləri ilə infeksiyanın genişlənməsinə rəvac verən vətəndaşlara qanunun gücü ilə təsir etməyi nəzərdə tutur. Söhbət ciddi cəza və cərimələrdən gedir. Lakin görünən odur ki, pandemiya yüksələn xətlə irəliləyir. Səbəb bir çox adamların qapalı məkanlarda qoruyucu vasitələrdən istifadə etməməsi, məsuliyyətsizliyi, ətrafdakılara biganəliyidir. Onların bu eqoistik hərəkətləri əslində hüquq pozuntusudur. Çünki cəmiyyətin həyatına təhlükədir, pandemiya ilə mübarizəyə açıq maneədir.



Bəs nə etməli? Bunun çox effektiv bir yolu var. Hər birimiz vətəndaş kimi, bu cəmiyyətin üzvü olaraq davranışları ilə infeksiyanın yayılmasına fürsət verən hər bir nəfərin üzərinə getməliyik. Hansı qapalı məkanda olursa-olsun - market, aptek, iş yeri, nəqliyyat və s.- maskasız gəzən, məsafə saxlamayan, epidemioloji tələbləri, metodiki tövsiyələri qulaq ardına vuran istənilən fərdə qarşı səsimizi çıxarmalı, onu qınaq obyektinə çevirməli, yeri gələrsə, çevrədəki insanların dəstəyi ilə hüquqmühafizə orqanlarına təhvil verməliyik.

Sosial şəbəkələrdə çaşqınlıq, panika, inamsızlıq yaratmaq istəyən ünsürlər də cəmiyyətin sərt üzünü görməlidir. Çin kimi milyard yarımdan çox əhalisi olan ölkə pandemiyanı məhz belə yollarla cilovlaya bildi. Bizim nəyimiz onlardan əksikdir".

---

# Bakıda silahlı şəxs saxlanılıb

***Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən əllərdə qanunsuz saxlanılan odlu silah-sursatın aşkar edilməsi istiqamətində daha bir əməliyyat tədbiri həyata keçirilib.***



Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, belə ki, Baş İdarəyə Edqar adlı şəxsin Binəqədi rayonu Biləcəri qəsəbəsində yaşadığı evdə qanunsuz olaraq silah gizlətməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbirnəticəsində həmin şəxs, paytaxt sakini Edqar Abdullayev Nəsimi rayonu ərazisində tutulub. Onun Biləcəri qəsəbəsində qeydiyyatda olduğu evə baxış keçirilən zaman 1 ədəd "WALTER" markalı tapança, 1 ədəd daraq və 7 ədəd patron aşkar olnaraq götürülüb.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Edqar Abdullayev barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, istintaq tədbirləri davam etdirilir.

# Sevinc Osmanqızını təlaşlandıran nədir?

## *Yaxud özgənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır*

***Artıq bir müddətdir ki, Sevinc Osmanqızı canlı yayımlarında müxalifət düşərgəsinin təmsilçilərini, trollarını üzüzə qoymaqla yanaşı, onları təhqir etdirməyi də unutmur. Bəli, ənənəsinə sadiq qalan Sevinc Osmanqızı bu dəfə də təhqir etdirdi, lakin müxalifəti deyil, birbaşa xalqımızı. İnsanlarımızı trollarına təhqir etdirən Sevinc Osmanqızı bununla son günlər ərzində ifşa edilməsinə göstərdiyi psixoloji gərginlik təpkisi kimi qəbul edilə bilər. Amma bu heç bir halda haqq vermir ki, Sevinc Osmanqızı xalqımıza yönəlik təhqirlərə yol versin. Xalqı aşağılamaq, siyasi məqsədlər naminə dövlətinə, Vətəninə qarşı qarayaxma kampaniyası aparmaq heç bir mənəvi çərçivəyə sığmaz. Bu gün S.Osmanqızı pandemiya zamanında özü kimi istifadə olunan satqınları "Osmanqızı TV"-yə dəvət etməklə qarayaxma kampaniyası aparmaqla bir daha nə qədə mənəviyyatsız olduğunu nümayiş etdirir.***

**Təəccüblü deyil...**

Çünki satqın və istifadə olunanların anladıqları budur. Baxın, dağıdıcı müxalifət deyir ki, Azərbaycanda infrastruktur bərbad vəziyyətdədir. Konstruktiv müxalifət isə dağıdıcı müxalifəti başa salır ki, ətrafa baxsınlar. Yeniləşən Azərbaycanda aparılan tikinti-quruculuq işlərini-binalar, yollar, parklar və s... radikallara sübut kimi göstərirlər. Lakin onlar bunu görmək istəmirlər. Və S.Osmanqızı da Əli Kərimlini kanalına dəvət etməklə bir daha gerçək üzünü



göstərir. Bu nə birinci, nə də sonuncudur, nə də təəccüb doğurandır. Bu o Sevinc Osmanqızıdır ki, bu gün sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirən, əvəzində filan qədər dollar, avro əldə edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satan Sevinc Osmanqızıdır! Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Belə bir deyim var: "xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır". Lakin Sevinc kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir. Və ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Bir də dərk etməyə nə əqli, nə də əxlaqı imkan vermir. İllər böyu rusun, farsın, erməninin, ingilisin, amerikalının, norveçlinin maşası, quruqbulayanı ola, belə əxlaqsız və mənəviyyatını bütünlüklə qrantlara satan bir nakəsdən başqa nəyi gözləmək olar?! Və yenə də vurğulayıram ki, əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi satqın və istifadf olunan Sevinc Osmanqızı kimilərin canındadır, qanındadır. Elə bədəxtlik də bundadır. Çünki əgər bu gün bütün dünyanı ağuşuna alan koronavirus epidemiyasının tüğyan etdiyi bir zamanda insanların salamlığını qorumaq üçün "Evdə qal" kampaniyasını aparırsa və mənəm-mənəm deyən dövlətlərdə insan itkisinin yüksək olduğu halda, Azərbaycan dövlətinin düzgün və düşünülmüş siyasəti nəticəsində insan itkisinin az sayda olduğunu Beynəlxalq Səhiyyə təşkilatı da bildirir və koronavirusa yoluxan ölkələr də bu təcrübədən istifalə edirlərsə, o zaman bu sosial şəbəkə virusları evdə qalmağını "ev dustaqlığı" kimi niyə qələmə verirlər? Dərdiniz başqa dərddir.

Bir sözlə, Sevinc Osmanqızı kimi satqınlar Azərbaycanda nəyi görmək istəmirsə, daha çox, necə deyərlər "qaşınmayan yerdən qan çıxarmağa" çalışır. Ancaq hər nə olursan, ol, kimlərinsə istifadəsinə çevrilmə. Ancaq görünür Sevinc Osmanqızı kimilər buna adətkar olub. Bunu da necə deyərlər, əcinələr və satqınlar yuvası olan "Milli Şura"nını sədri Cəmil Həsənli deyib ki, müxalifətdəkilər tryapkadırlar, özü də heç ayaqqabı silməyə belə layiq deyillər. Bəli, göründüyü kimi, onun-bunun yalağı olmaqla yanaşı, adını "siyasi mühacir" qoyaraq, Vətənini, elini, hətta ailəsini belə sataraq, mənəviyyat deyilən məfhumdan uzaq olan, qranta hər şeylərini satanlar istifadə olunub yararsız əşya kimi atılırlar. Sevinc Osmanqızı kimi. Və bu o S.Osmanqızıdır ki, Vətəni bir evə dəyişən satqın iblisdir.

S.Osmanqızı aşırı qədər satqındır ki, hətta "20 Yanvar, 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil" deyir. Doğurdan da, S.Osmanqızını, vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Maraqlıdır, bu iblis Xocalı faciəsi ilə bağlı "olanları bilmək borcumuz və haqqımızdır" deyir. Ancaq hətta Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar. Və Sevinc Osmanqızı kimilərin belə deməsi də təəccüb doğurmur. Çünki bələləri beynəlxalq siyasi qüvvələr tərəfindən geniş maliyyə vəsaiti xərcləyərək onlardan Azərbaycana qarşı istifadə edirlər. Və bu parazitlər anlamalıdırlar ki, Azərbaycanda onlara yer yoxdur. Onların əsl mahiyyəti alət olmaqdır və onlar öz istifadə müddətlərini çoxdan bitiriblər. Və bələləri istifadə olunan erməni itinin yalağında yalağlananlardır. Ancaq unutmamalıdırlar ki, Vətənin halal çörəyinə kəm baxanların gözünə qan gələr və özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

***Rəfiqə HÜSEYNOVA***

# Satqının "liderlik" arzusu, yaxud bişmiş toyuğun...

Deyir "aşığın sözü qurtaranda yarım-yarım" deyir. İndi də dağıdıcı düşərgənin satqın və əxlaqsızları, daha doğrusu AXCP sədri Əli Kərimli, bu satqının qıl verəni "Milli Şura"nın sədri, hoqqabaz qoca "professor" Cəmil Həsənli bu günlərdə keçirdikləri vidokonfransda həyasızcasına başlayıb satqın axtarışına və bütün düşərgədə olanları satqın adlandıraraq deyib ki, ona görə də bunların hamısı ayaqqabı silməyə də lazım olmayan tryapkadır. Bu yerldə yaxşı deyiblər, abırsızın abrı olmaz. Bu aksiomadır.

Ancaq qəribəsi odur ki, belə abırsızlar başqalarından siyasi ləyaqət tələb edir. Və ən gülünc doğuranı da odur ki, epidemiyanın tuğyan etdiyi məqamda sosial şəbəkələrdən çağırışlar edən bu abırsızlar daim demokratiyadan, haqq və ədalət uğrunda sivil siyasi mübarizə aparmalarından pafoslu şəkildə danışdıqları halda, radikal müxalifət düşərgəsinin "ana", "ata" müxalifətindən soruşmaq lazımdır: satqını başqa yerdə niyə axtarırsınız?. Elə satqın toplusu özünüz deyilsiniz?. AXCP-dən tutmuş Müsavata, "Osmanqızı" və "Azərbaycan saatı" kanallarına kimi, yalan danışdıqlarınız qədər də satqın deyilsiniz? Heç bir şeyə nail olmadıqda onun ardınca söyüş və təhqirə. Bir də AXCP üçün söyüş və təhqir təəccüblü hadisə deyil. Çünki AXCP-Müsavat arasında qarşıdurmalar nə dünən olub, nə də bu gün, illər boyu bu qarşıdurmalar olub, eləcə də təhqir və söyüşlər də onlar üçün adi hala çevrilib. Çünki dağıdıcı düşərgədə cəmləşən əl-ayağa dolaşan partiyalar mövcud olduqları gündən heç vaxt ictimai əsaslarla fəaliyyətə üstünlük verməyiblər. Bunun üçün isə o qədər faktlar var ki, hətta arxivlşdirsən, arxivlərə belə sığmaz. Daha dəqiq desk, onların yeganə və şablon prinsipi xarici donor təşkilatlara məktub göndərərək, sifarişlər əsasında pul qoparmaqdan ibarətdir.

Oxucularımız xatırlayar, bir ara "müxalifətçiyəm" adı uğurunda savaş edirdiniz. Nə oludu? Bu da bir nəticə verlmədi. Çünki nə müxalifətçi kimi "müxalifətçi" oldunuz, nə də siyasətçi kimi "siyasətçi". Sual olunur: nə etmisən "müxalifətçi" olmaqla? Zaman-zaman müxtəlif adlar altında birliklər, bloklar və sair formatlar yaratmaq "müxalifətçilik"dirmi? Əslində yaratdığınız qurumlar da, mahiyyətcə elə köhnə müxalifətin köhnə təfəkkür tərzindən və yaritmaz yanaşmalarından heç də fərqlənmir. Çünki bu cür formatların arxasında dayananlar elə ənənəvi, uğursuz müxalifət "liderləridir". Görünür, ona görə də, dağıdıcı müxalifət partiyaları siyasi mövcudluqlarının sonuna yaxınlaşdıqca, onlar üçün hər şey çox qəribə görünür və sosial şəbəkələrdən "mitinq, mitinq" qışqırmağın bir nəticəsi olmadığını gördükdə vidokonfranslar keçirməklə "liderlik" iddialarını reallaşdırmağa çalışırlar. Səbəb də bəllidir - "lider" olmaq xarici havadarlarının vermiş olduqları pullar hesabına ölkədə siyasi sabitliyi pozmağa çalışmaq. Və bu istəkləri də 27 ildir ki,



ürəklərində qalır. Çünki hər dəfə ictimaiyyət onların ağızlarına elə sillə vurur ki, oturduqları yerdən belə dura bilmirlər. Görünür, müxalifət düşərgəsində fələk tərsinə dövr edir: Arif Hacılı gəlib başqan olur, satqın Əli Kərimli müxalifətin "anası-atası" olmaqdan keçib "lideri" olmaq iddiasına düşür. Elə bu yerdə şair yaman deyib: "Bat, a dünya, bat! Sənin ki, Arif Hacılı, Əli Kərimli ... kimi partiya satqınların "liderlik" iddiasına düşürsə, o zaman bu partiyaciklər də başından böyük qələtlərə girişəcək də. Vəziyyət belədir. İndi düşərgədə elə bir vəziyyət yaranıb ki, qarayaranın üstündən çıxan sarı yara da, "liderlik" problemi üzərində qurulub. Bu yerdə satqının "lider" olması bişbiş toyuğun...Gerisi nə olacaq, onlar bizdən də yaxşı bilir...

Görünür, bu xəmir hələ çox su aparacaq. Və bu gün AXCP trolları necə davranırlarsa, dünən də elə olub, sabah da bu cür davam edəcək, əlbəttə ki, AXCP düşdüyü iflas burulğanından xilas olmağa macal taparsa...Və bu söyüş və təhqirlər isə hələ çox olacaq. Ta o vaxta qədər ki, zəifliklərini öz dilləri ilə etiraf etmək olacaqlar, yəni süqut edəcəklər. Bunu isə hər şeyi yaddaşına köçürən və yalan danışmayan zaman da göstərəcək.

***RƏFİQƏ***

## BNA: Avtobusda maskasız sərnişin aşkarlanarsa, polisə məlumat veriləcək

Bakı Nəqliyyat Agentliyi (BNA) marşrut avtobuslarında maskadan istifadənin qadağan edilməsilə bağlı nəzarət tədbirlərinə start verib. SİA-nın məlumatına görə, bunu Agentliyin sərnişindaşıma şöbəsinin müdiri Vüqar Məmmədzadə deyib.

Onun sözlərinə görə, agentlik artıq bu gündən bu məsələ ilə bağlı tam qüvvəsi ilə xidmət göstərir. Əməkdaşlarımız şəhər ərazisindəki bütün məntəqələrimizdə nəzarət həyata keçirir. Dayanacaqlarda əməkdaşlarımız dünəndən etibarən sərnişinlər arasında təbliğat aparır. Qanunvericiliyə görə, maskadan istifadə etməyən şəxslər cəzalanmalıdır. Amma biz cərimələnmənin tərəfdarı deyilik, ona görə də maarifləndirmə xarakterli tədbirlər həyata keçirir və insanları maskadan istifadəyə çağırırıq. Bakı Nəqliyyat Agentliyi bununla bağlı sərnişindaşımadakı daşıyıcılara və onların sürücülərinə xəbərdarlıqlar edib. Sürücülərə tapşırılıb ki, avtobusa maskasız sərnişin daxil olan kimi nəqliyyat vasitəsini saxlasın və dayanacaqdan tərpənməsin. Həmçinin sərnişinlər arasında təbliğat aparırıq ki, avtobuslarda maskasız şəxs gördükləri halda ictimai qınaq obyektinə çevirsinlər. Sürücülərə də tapşırılıb ki, avtobusda maskasız şəxs aşkarlayarlarsa, dərhal yaxınlıqda olan polis əməkdaşlarına məlumat versinlər. Bununla da maskasız sərnişin polis vasitəsilə avtobusdan kənarlaşdırılacaq".

## Ukraynada maska taxmayan sakinlər sərt cəzalandırılacaq

Ukrayna Nazirlər Kabineti karantin qaydalarının pozulmasına görə cəzalandırmaq siyasətinin davam etdiriləcəyi barədə xəbərdarlıq edib. AZƏRTAC xəbər verir ki, Baş Nazir Denis Şmıqal Nazir Kabinetinin iclasında bunu bəyan edib. Söhbət sosial distansiyaya və maska rejiminə riayət edilməməsindən gedir.

Ukrayna hökumətinin başçısı deyib: "Bazar ertəsindən etibarən karantin məhdudiyyətlərinə riayət etməyən müəssisələrə cərimə tətbiq edilməsi aksiyasına başlamışıq. Lakin, hörmətli Ukrayna vətəndaşları, biz sosial distansiya, maska rejimi və dezinfeksiya tədbirlərinə riayət olunmamasına görə cəzalandırma siyasətini davam etdirəcəyik".

# Qərbi Azərbbaycanda türk mənşəli toponimlərin erməniləşdirilməsi

***"İndiki Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soydaşlarımızın tarixi-etnik torpaqlarından sonuncu nəfərinədək deportasiyası məhz rayonlar üzrə bölgünün mövcud olduğu dövrdə, hələ Ermənistanda sovet hakimiyyətinin mövcud olduğu dövrdə başa çatdırılmışdır. Əhalinin yaddaşında və şəxsiyyətini təsdiq edən sənədlərdə də məhz onların o dövrdə doğulub boya-başa çatdıqları kəndin və rayonun adları qeyd olunmuşdur"***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***1935-ci ilədək Ermənistanda azərbaycanlı yaşayış məskənlərinin adları Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları olmadan, yəni hökumətin müəyyən strukturları tərəfindən dəyişdirilmişdir. 1935-ci il yanvarın 3-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanla 29 rayonda 72 türkmənşəli toponim dəyişdirilərək mənəvi soyqırıma məruz qoyulmuşdur.***

Azərbaycan türklərinin tarixi-etnik torpaqlarındakı izlərini silmək məqsədini güdən addəyişmə əməliyyatları əsasən aşağıdakı qaydada həyata keçirilmişlər:

1. İlk növbədə türklərin soykökü, onun tarixi keçmişi ilə bağlı yaşayış məskənlərinin adlarının (etnonimlər) dəyişdirilməsinə xüsusi diqqət yetirilmişdir. Məsələn, Aşağı Türkmənli-Lusaq-yuğ (Eçmiədzin), Qorçulu -Mrqaşad, Sərdarabad-Hoktember (Hoktemberyan (Sərdarabad)), Bayandur-Vağadur (Gorus), Şirvancıq-Lernakert (Artik) və s.

2. Bir çox yaşayış məskənlərinin adları ermənicəyə hərfi tərcümə edilmişdir. Məsələn, Armudlu -Tandzut (Hoktemberyan (Sərdarabad)), Daşqala -Karaberd (Ani(Ağin)), Darəkənd-Dzoraqyuğ (Quqark), Dərəçiçək-Tsaxkadzor (Hrazdan(Axta)), Göl-Liçk (Martuni (Aşağı Qaranlıq)), Güllübulaq-Vardaxpuyr (Qukasyan (Qızılqoç)) və s.

3. Bəzi yaşayış məskənlərinin adları "beynəlmiləlçilik" pərdəsi altında dəyişdirilmişdir. Məsələn, Qaraqışlaq-Dostluq (Masis( Zəngibasar)), Sultanabad-Şurabad (Amasiya (Ağ-baba)), Cücəkənd-Qızılşəfəq (Kalinino), Aşağı Necili-Sayat-Nova (Masis (Zəngibasar)), Çanaxçı-Sovetakert (Ararat (Vedi)) və s.

Bu proses bəzi erməni yaşayış məskənlərinin adlarının müasirləşdirilməsi prosesi ilə yanaşı aparılmışdır.

4. Yaşayış məskənlərinin adlarının bir qismi isə cüzi dəyişiklə, ona oxşar, lakin erməniсələşdirilmiş adla əvəz edilmişdir. Məsələn, Dərabbas-Darbas (Sisyan), Dəlilər-Dalar (Artaşat (Qəmərli)), Ələyəz-Araqats (Talın), Ərəvus-Arevis (Sisyan), Gabud -Kapuyt (Əzizbəyov), Çırpılı-Crapi (Ani (Ağin)) və s.

5. "Ermənistan SSR-in inzibati ərazi bölgüsü"nün qeyd etdiyimiz nəşrlərində adının önündə "Yuxarı", "Aşağı", "Böyük", "Kiçik" sözləri gələn türkmənşəli yaşayış məntəqələrinin adlarında bu sözlər erməncə -yəni müvafiq olaraq "Verin", "Nerkin", "Mets", "Pokr" şəklində yazılması həmin adların erməni dilində olması görüntüsü yaratmağa xidmət etmişdir. Bununla elə təəssürat yaratmağa çalışmışlar ki, guya dəyişdirilən adlar erməni mənşəlidir. Məsələn, Verin Zağalı-Axpradzor (Vardenis (Basarkeçər)), Nerkin Zeyvə -Hartaşen (Eçmiədzin), Mets Kəpənəkçi-Musaelyan (Axuryan (Düzkənd)), Pokr Şiştəpə-Pokr Sepasar (Qukasyan (Qızılqoç)) və s.

Ümumiyyətlə, ermənilər Azərbaycanlılara məxsusluğunu bildirən toponimlərdə hallanan "dağ" sözbirləşməsini "sar", təpə sözbirləşməsini "blur", göl sözbirləşməsini "lic", çay sözbirləşməsini "get", bulaq sözbirləşməsini "axbyur", su sözbirləşməsini "cur", dərə sözbirləşməsini "dzor" ifadəsi ilə əvəz etməklə, hərfi tərcümə yolu ilə toponimlərimizi erməniсələşdirmişlər.

1935-ci ilədək Ermənistanda azərbaycanlı yaşayış məskənlərinin adları Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları olmadan, yəni hökumətin müəyyən strukturları tərəfindən dəyişdirilmişdir. 1935-ci il yanvarın 3-də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin verdiyi fərmanla 29 rayonda 72 türkmənşəli toponim dəyişdirilərək mənəvi soyqırıma məruz qoyulmuşdur.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarları əsasında 100 mindən artıq azərbaycanlının 1948-1953-cü illərdə Ermənistan SSR-dəki tarixi-etnik torpaqlarından Azərbaycan SSR-in Kür-Araz ovalığına deporta-siyasından sonra 60-dan artıq yaşayış məntəqəsinin adları dəyiş-dirilmişdir. Qarabağlar rayonu azərbaycanlıların deportasiyasından sonra ləğv edilmiş, onun kəndlərinin çoxu indiyədək xaraba qalmışdır.

Təkcə 1978-ci ildə 23 rayonda 60 türkmənşəli toponim dəyişdirilmişdir. 1988-1989-cu illərdə Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti həyata keçirildikdən sonra Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə 90 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il fərmanı ilə 16 yaşayış məntəqəsinin, Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə isə əvvəllər azərbaycanlılara məxsus olmuş, 31 yaşayış mən-təqəsinin adları dəyişdirilərək erməniсələşdirilmişdir. Ümumiyyətlə, son dövrədək 702 türkmənşəli inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir

Elə azərbaycanlı yaşayış məntəqəsi olmuişdur ki, onun adı indiyədək bir neçə dəfə dəyişdirilmişdir. Məsələn, azərbaycanlıların 1988-ci ildə deportasiya olunduqları Amasiya rayonundakı Yeniyol kəndinin adını 1991-ci ildə dəyişdirərək Ağvorik qoymuşlar. Lakin Yeniyolun əvvəlki adı 1935-ci ilədək Qaranamaz olmuşdur.

İndiki Ermənistan ərazisində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soydaşlarımızın tarixi-etnik torpaqlarından sonuncu nəfərinədək deportasiyası məhz rayonlar üzrə bölgünün mövcud olduğu dövrdə, hələ Ermənistanda sovet hakimiyyətinin mövcud olduğu dövrdə başa çatdırılmışdır. Əhalinin yaddaşında və şəxsiyyətini təsdiq edən sənədlərdə də məhz onların o dövrdə doğulub boya-başa çatdıqları kəndin və rayonun adları qeyd olunmuşdur.

7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında yeni qanun qəbul edilmişdir. Ermənistanın yeni inzibati-ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət (marz) yaradılmışdır. Şirak vilayətinə keçmiş Amasiya (Ağbaba), Qukasyan (Qızılqoç), Axuryan (Düzkənd), Ani(Ağin) və Artik rayonları, Lori vilayətinə keçmiş Kalinino, Stepanavan (Cəlaloğlu), Tumanyan (Allahverdi), Spitak (Hamamlı) və Quqark rayonları, Tavuş vilayətinə keçmiş Noyemberyan, İcevan (Karvansara) və Tauş (Şəmşəddin) rayonları, Araqadzon vilayətinə keçmiş Talın, Aparan, Araqats (Ələyəz), Aştarak (Əştərək) rayonları, Kotayk vilayətinə keçmiş Hrazdan (Axta), Kotayk (Abovyan-Ellər), Nairi rayonları, Geğarkunuk vilayətinə keçmiş Krasnoselo (Çəmbərək), Vardenis (Basarkeçər), Martuni (Aşağı Qaranlıq), Kamo (Kəvər) və Sevan rayonları, Armavir vilayətinə keçmiş Bağramyan, Hoktemberyan (Sərdarabad) və Eçmiədzin rayonları, Ararat vilayətinə keçmiş Masis (Zəngibasar), Artaşat (Qəmərli) və Ararat (Vedi) rayonları, Vayotsdzor vilayətinə keçmiş Vayk (Əzizbəyov) və Yeğeqnadzor (Keşişkənd) rayonları, Sünik vilayətinə keçmiş Meğri, Sisyan, Qafan və Gorus rayonları daxil edilmişdir. İrəvan şəhərinə də ayrıca vilayət statusu verilmişdir. Tarixi Azərbaycan torpaqlarında - indiki Ermənistan ərazisində türk mənşəli yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi prosesi başa çatdırılmaq üzrədir. Adları hələlik siyasi motivlərə əsasən bilərəkdən dəyişdirilməyən cəmisi bir neçə yaşayış məntəqəsi saxlanılmışdır. Məsələn, Nizami (Zəngibasar), Avşar (Vedi), Hallavar (Quqark), Şamlıq (Tumanyan (Allahverdi)) vəs.

Ermənistan Dövlət Daşınmaz Əmlakın Kadastrı komitəsinin verdiyi məlumata görə, 2007-ci ildə yerdə qalan 21 yaşayış məntəqəsinin adlarının dəyişdirilməsi ilə addəyişmə əməliyyatı başa çatdırılmışdır.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 iyun

SƏS

Son səhifə

# Cennifer Lopez çimərlik obrazında bərq vurdu




**Şöhrəti ilə bütün dünyaya səs salan 50 yaşlı müğənni və aktrisa Cennifer Lopez sosial media paylaşımları ilə gündəmə gəlib. Cazibədarlığı ilə göz qamaşdıran sənətçi "Guess" markasına məxsus ağ çimərlik geyimində fotolarını yayıb.**

Görünüşünə diqqətlə yanaşan Lopez çimərlik tərzini böyük ölçülü halqavari sırğaları, gözünə taxdığı eynək və barmağındakı -sevgilisi iş adamı Aleks Rodrigesin hədiyyə etdiyi brilliant qaşlı üzüklə tamamlayıb.

Ulduzun"Yay əhval-ruhiyyəsi" başlığı altında paylaşdığı, biri-birindən füsunkar şəkilləri izləyicilər tərəfindən maraq və sevgi ilə qarşılanıb. Qeyd edək ki, C.Lopez ilk dəfə 2018-ci ildə "Guess" brendinin yaz fəsli üçün təqdim etdiyi kolleksiyanın siması olub.

# "Barselona"da qalmaqal: Messi ilə Qrizmann savaşıblar!



**"Barselona" klubunun dünən Bilbao "Atletik"i ilə keçirilən matçından (1:0) əvvəl baş tutan məşq prosesində qalmaqal yaşanıb. İspaniya mediası xəbər verir ki, dəfələrlə aralarında mübahisə düşən Messi ilə Qrizmann bu dəfə də "ənənələrinə" sadiq qalıblar.**

Belə ki, Kataloniya təmsilçisinin məşqi zamanı argentinalı ulduz fransalı ilə söz "davasına" çıxıb. Sonda isə futbolçular bir-birinə hücum çəkib. Gərginlik o yerə çatıb ki, baş məşqçi Kiki Setyen və digər oyunçular onları güclə ayırıblar. Qeyd edək ki, İspaniya mətbuatında "Barselona"nın "İnter"in ulduzu Lautaro Martinezi alacağı təqdirdə Qrizmanın "Mançester Yunayted"ə gedəcəyi barədə xəbərlər yayılıb.

# 8103-ə göndərilən SMS-lərə cavab 15 dəqiqə ərzində gələcək




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən aparılmış araşdırmalar nəticəsində bəzi vətəndaşlar tərəfindən 8103 SMS icazə sistemi ilə bağlı sui-istifadə hallarına yol verildiyi aşkarlanıb. Müəyyən olunub ki, cavabın qısa müddət ərzində (99,4 faiz müraciət 1 dəqiqə ərzində) gəlməsindən sui-istifadə edən bəzi vətəndaşlar evdən çıxarkən deyil, yalnız polis yoxlama məntəqələrinə yaxınlaşarkən SMS müraciət edirlər.

Agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunanlar nəzərə alınaraq, 8103 SMS icazə sisteminin fəaliyyətində dəyişiklik edilib. Belə ki, artıq vətəndaşlar tərəfindən müvafiq kod üzrə müraciət olunduğu zaman cavab SMS-i 15 dəqiqə ərzində gələcək.

Eyni zamanda, "E-Təbib" mobil tətbiqi vasitəsilə edilən bu cür müraciətlərə cavab 5 dəqiqə ərzində təmin olunacaq. Vətəndaşlar yaşayış yerini yalnız müsbət cavab aldıqdan sonra tərk edə bilərlər. Vətəndaşların müraciətinə gələn cavab SMS-ində icazənin qüvvədə olduğu müddət göstərilir. Evdən çıxmaq istədiklərinə dair vətəndaşlar tərəfindən icazə əldə etmək üçün 8103 qısa nömrəsinə 3 milyon 475 min SMS göndərilib ki, bunlardan da 774 mini, yəni 22 faizi aidiyyəti olmayan məzmunla bağlı göndərildiyindən təsdiq cavabı almayıb.

# Koronavirus xəstələrinin ən çox buna ehtiyacı var




Bir çox ölkə oksigen təminatı məsələsində problemlər yaşayır. Bu sözləri Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus deyib. Onun sözlərinə görə, gündə, orta hesabla, 88 min böyük ölçüdə oksigen balonuna ehtiyac var, amma bu tələb bir çox ölkədə qarşılanmır: "Biz 14 min balon oksigen almışıq və gələn həftə bunları 120 ölkəyə paylayacağıq. Maddi dəyəri 100 milyon dollar olan 170 min oksigen balonunu da növbəti 6 ay ərzində göndərə biləcəyik".

Koronavirusa qlobal yoluxma sayının hər həftə 1 milyon artdığını qeyd edən baş direktor bu həftənin sonunda rəqəmlərin 10 milyona yaxınlaşmasını gözlədiklərini dilə gətirib.

# "Milan" Hakan Çalhanoğlu ilə müqaviləni uzadacaq




İtaliyanın "Milan" klubu futbolçusu Hakan Çalhanoğlu ilə müqavilənin müddətini uzatmağı planlaşdırır.

İtaliya klubuna baş məşqçi təyin olunacağı gözlənilən Ralf Ranqnikin də türk yarımmüdafiəçinin komandada qalmasını istədiyi bildirilib. Qeyd edək ki, H.Çalhanoğlunun "Milan"la hazırkı müqaviləsi 2021-ci ilin iyununda başa çatır.

# Həkim ən təhlükəli ayaqqabı növünü açıqladı



Altı düz ayaqqabılar ciddi ayaq deformasiyalarına səbəb ola bilər. Bu barədə Rusiyanın Piroqov Mərkəzinin travmatoloq-ortopedi Mixail Vixtar danışıb. Doktor qeyd edib ki, ən təhlükəli rezin ayaqqabılardır. Ekspertin sözlərinə görə, yay ayaqqabıları yaxşı inkişaf etmiş çərçivəyə sahib olmalıdır. Dabanın baş barmağın yerləşdiyi yerdən dəstəyə ehtiyacı var. Bundan əlavə, altlıq çox sərt olmamalıdır, bu vəziyyətdə ortopedik altlıq idealdır. Həkim məsləhət görüb ki, yay aylarında parklarda və qumsallıqda ayaqyalın gəzmək ayaqlar üçün faydalıdır. "Ayaqların təbii vəziyyətdə olmasına imkan verən belə bir idmanla məşğul olmaq çox yaxşı fikirdir", - ortoped bildirib./publika.az

# Bakıda polis itmiş pulu sahibinə qaytardı



Bakı metrosunda polis əməkdaşları pulunu itirən gənci sevindirib. Belə ki, paytaxt sakini Pərviz İsrafilovun Oxu.Az-a verdiyi xəbərə görə, hüquq-mühafizə orqanlarının əməkdaşları itmiş maaşını 1993-cü il təvəllüdlü dostu Nəsib Ağayevə qaytarıb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**